ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 35 (1517) ❖ Cümə, 20 noyabr 2026-cı il ❖ Qəzet 1984-cü ildən nəşr olunur



Prezident İlham Əliyev Vyetnam Xəbər Agentliyinə müsahibə verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vyetnam Xəbər Agentliyinə (VNA) müsahibə verib.
AZƏRTAC müsahibəni təqdim edir.

- Hörmətli cənab Prezident, ikitərəfli əməkdaşlığın tarixində yeni mərhələnin başlanması ilə əlamətdar olacaq Vyetnama qarşıdakı rəsmi səfəriniz ərəfəsində Siz Azərbaycan ilə Vyetnam arasında siyasi dialoqun hazırkı vəziyyətini necə xarakterizə edərdiniz?

- Azərbaycan-Vyetnam münasibətlərinin təxminən yetmişillik tarixindən bəhs edərkən, hər şeydən əvvəl, bu dostluğun köklərinə qayıtmaq və onun əsasını qoymuş iki böyük lideri səmimi minnətdarlıq hissi ilə xatırlamaq istəyirəm.

Sözsüz ki, başlanğıc nöqtəsi 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Minin Bakıya unudulmaz səfəri idi. 1983-cü il əsl sıçrayışla əlamətdar oldu. Həmin vaxt Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyevin başçılığı ilə sovet nümayəndə heyəti Vyetnama səfər etdi. Azərbaycan xalqının Ümummilli Liderinin təşəbbüsü ilə bu səfərin müddəti səkkiz günə qədər uzadıldı və ölkənin əsas regionlarını əhatə etdi. Həmin vaxt əldə olunan razılaşmalar Vyetnam iqtisadiyyatının inkişafına güclü təkan verdi və çoxillik əməkdaşlığın istiqamətini müəyyənləşdirdi.

Möhkəm, zamanın sınaqlarından çıxmış dostluğa əsaslanaraq, biz əlaqələrin gücləndirilməsini və qarşılıqlı faydalı tərəfdaşlığın genişləndirilməsini ardıcıl şəkildə davam etdirdik. 2014-cü ildə mənim Vyetnama ilk dövlət səfərim baş tutdu, artıq 2015-ci ilin mayında isə Vyetnam Sosialist Respublikasının Prezidenti cənab Çıonq Tan Şanq Azərbaycana cavab səfəri etdi.

Keçən ilin mayında Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi cənab To Lamın Azərbaycana ilk dövlət səfəri dövlətlərarası münasibətlərimizdə yeni fəsil açdı. Aparılan konstruktiv danışıqlar energetika və investisiyalardan müdafiə və kibertəhlükəsizliyə qədər istiqamətlərin geniş spektrini əhatə etdi. Strateji tərəfdaşlıq haqqında Birgə Bəyanatın - Azərbaycan-Vyetnam əlaqələrini keyfiyyətcə yeni səviyyəyə qaldıran mühüm sənədin qəbul edilməsi məntiqi nəticə oldu. Bu səfər tərəfdaşlığın dərinləşdirilməsi və onun praktiki məzmunla zənginləşdirilməsi üzrə qarşılıqlı marağı bir daha nümayiş etdirdi.

Dövlət başçılarının siyasi təmasları ilə paralel olaraq, hökumətlərarası komissiyaların, müvafiq idarələrin, həmçinin parlamentlərarası dostluq qruplarının xətti ilə səmərəli dialoq aparılır. Bundan əlavə, iki ölkənin hakim partiyaları - Yeni Azərbaycan Partiyası və Vyetnam Kommunist Partiyası arasında sıx əməkdaşlıq inkişaf edir.

Ölkələrimiz arasında ikitərəfli dialoq ilə yanaşı, beynəlxalq platformalarda, xüsusilə BMT, Qoşulmama Hərəkatı, AQEM və digər beynəlxalq təşkilatlar çərçivəsində də sıx qarşılıqlı əlaqə qurulub.

Sözsüz ki, bütün bunlar Bakı ilə Hanoy arasında çoxillik siyasi dialoqun bərabərhüquqluluq və qarşılıqlı maraqların nəzərə alınması əsasında dayanıqlı şəkildə dərinləşməsini göstərir.

- İqtisadi-ticari münasibətlərin əsas nəticələri, istiqamətləri və inkişaf potensialı hansılardır?

- Azərbaycan-Vyetnam iqtisadi-ticari əlaqələri ardıcıl şəkildə inkişaf edir. 2025-ci ilin yekunlarına görə, iki ölkə arasında ticarət dövriyyəsi 150 milyon dollardan artıq olub. Bununla yanaşı, bu göstərici hələ ki, real imkanları əks etdirmir: hər iki tərəf qarşılıqlı ticarətdə əhəmiyyətli artım üçün böyük potensiala malikdir.

Sovet İttifaqı dövründən bəri tarixən tərəfdaşlığımızın təməlini təşkil edən neft sektoru qarşılıqlı fəaliyyətin əsas istiqaməti statusunu qoruyub saxlayır. Bu kontekstdə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Vyetnam Milli Neft və Qaz Şirkəti (PetroVietnam) arasında əlaqələrin dərinləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. 2025-ci ildə imzalanmış Anlaşma Memorandumu neft-qaz yataqlarının kəşfiyyatı və işlənilməsi, texniki xidmətlər və mütəxəssis hazırlığı kimi sahələrdə əməkdaşlığı nəzərdə tutur.

Vyetnam biznesinin Azərbaycan iqtisadiyyatında iştirakı da ikitərəfli münasibətlərin mühüm tərkib hissəsidir. Tikinti və infrastrukturun inkişafı, həmçinin Günəş və külək enerjisi sahələrində layihələrin həyata keçirilməsində maraqlı olduğunu bildirən "ROX Group" bunun bariz nümunəsidir. 2026-cı ilin sentyabrında Bakıda keçirilən İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində "ROX Group" ilə müvafiq sənədlər imzalanıb.

Tranzit daşımaları sahəsində də müsbət dinamika müşahidə olunur. 2026-cı ilin yanvar-sentyabr aylarında bu daşımaların həcmi 2025-ci ilin eyni dövrü ilə müqayisədə təxminən altı dəfə artıb və 8 min tondan çox olub.

Azərbaycanın nəqliyyat və logistika infrastrukturundan Orta Dəhliz və "Şimal-Cənub" nəqliyyat dəhlizi vasitəsilə Vyetnamdan Avropaya və əks istiqamətdə yüklərin daşınması üçün səmərəli şəkildə istifadə etmək olar. Bu, ölkəmizin beynəlxalq nəqliyyat dəhlizlərində rolunu gücləndirməklə yanaşı, əlavə iqtisadi dəyər və əməkdaşlıq üçün yeni imkanlar yaradılmasına və ikitərəfli əlaqələrin genişlənməsinə sanballı töhfə verəcək.

Ölkələrimiz ticarət dövriyyəsini əhəmiyyətli dərəcədə artırmaq və enerji, sənaye, kənd təsərrüfatı, nəqliyyat-logistika sektorlarında - bir sözlə, demək olar ki, bütün aparıcı sahələrdə genişmiqyaslı birgə təşəbbüsləri uğurla həyata keçirmək üçün kifayət qədər resurslara malikdir. Əminəm ki, planauyğun birgə iş ən qısa müddətdə əhəmiyyətli praktik nəticələr əldə etməyə imkan verəcək.

- Humanitar, təhsil və mədəni əlaqələr ölkələrimizin bir-birinə yaxınlaşmasında hansı rol oynayır və bu prosesə hansı təşəbbüslər imkan yaradır?

- Humanitar əməkdaşlıq xalqlarımızı və dövlətlərimizi birləşdirən möhkəm körpü rolunu oynayır. Onilliklər ərzində bu əlaqələr təhsil təşəbbüsləri, xeyriyyə layihələri və müntəzəm mədəni mübadilə vasitəsilə davamlı olaraq möhkəmləndirilib.

Heydər Əliyev Fondu bu prosesdə xüsusi rola malikdir və Vyetnamla humanitar münasibətlərin dərinləşməsinə fəal surətdə kömək edir. Fondun fəaliyyət istiqamətləri Ha Giang əyalətində ibtidai məktəbin tikintisi də daxil olmaqla infrastruktur təşəbbüslərindən tutmuş müxtəlif təhsil proqramlarının dəstəklənməsinə qədər geniş spektri əhatə edir.

Fondun vitse-prezidenti Leyla Əliyevanın 2025-ci ildə Vyetnama səfəri bu əlaqələrin möhkəmləndirilməsində mühüm addım olub. Səfər zamanı ölkə rəhbərləri, yaradıcı ziyalıların nümayəndələri və Azərbaycan universitetlərinin vyetnamlı məzunları ilə görüşlər keçirilib. Hanoy Ticarət və Turizm Kollecinə də maliyyə dəstəyi göstərilib.

Xeyriyyəçiliklə yanaşı, elm və təhsil əməkdaşlığı da dinamik şəkildə inkişaf edir. Hər iki ölkənin aparıcı universitetləri bir sıra tərəfdaşlıq müqavilələri və memorandumlar imzalayıb. Vyetnam nümayəndələri Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün mənim sərəncamıma uyğun olaraq yaradılmış təhsil qrant proqramlarında iştirak etmək imkanına malikdirlər.

Sevindirici haldır ki, bu akademik əlaqələr zəngin tarixi ənənələrə əsaslanır: hətta sovet dövründə belə, təxminən 5 min Vyetnam vətəndaşı Azərbaycanda təhsil alıb və sonradan əldə etdikləri bilik və təcrübəni vətənlərinin rifahı naminə uğurla tətbiq edib. İki ölkə arasında uzunmüddətli dostluğun rəmzi 2025-ci ildə Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi cənab To Lamın iştirakı ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Ho Şi Minin Memorial otağının açılışı olub. Həmin açılış bu görkəmli dövlət xadiminin anadan olmasının 135-ci ildönümünə təsadüf edib.

Qarşılıqlı mədəni fəaliyyət təhsil əlaqələrini ahəngdar şəkildə tamamlayır. Azərbaycanda ənənəvi olaraq Vyetnam Günləri keçirilir. 2026-cı ildə bu təşəbbüs keyfiyyətcə yeni səviyyəyə çatdı: dördüncü festival ilk dəfə olaraq iki şəhəri - Bakı və Qəbələni əhatə etdi. Digər əhəmiyyətli mədəni hadisə isə məşhur vyetnamlı şair Mai Van Phanın "Gün doğarkən" şeirlər toplusunun Azərbaycanda nəşr edilməsi oldu.

Ümumilikdə, xalqlarımız arasında mədəni dialoq on illərdir davam edir. Hələ 1955-ci ildə bəstəkar Qara Qarayev ilk Sovet-Vyetnam sənədli filmi üçün "Vyetnam süitası"nı yaradıb. Bu yaradıcı əlaqələr sonradan rejissor Əjdər Ibrahimov tərəfindən daha da möhkəmləndirilib. O, 1959-cu ildən 1962-ci ilə qədər Vyetnamda yaşayıb və çalışıb, milli kino məktəbinin ön sıralarında olub, yerli rejissorların və aktyorların yetişdirilməsinə kömək göstərib və ölkənizə bir neçə kitab həsr edib. Onlardan biri - "Vyetnamda gördüklərim" Vyetnam dilinə tərcümə edilib, bu kitabın təqdimatı isə bu il Hanoyda keçirilib.

Möhkəm dostluq bağları təkcə birgə layihələrdə deyil, həm də çətin anlarda köməyə gəlməyə hazır olmaqda özünü göstərir. 2024-cü ildə Vyetnamda baş verən "Yaqi" fırtınasının dağıdıcı nəticələrini aradan qaldırmaq, həmçinin 2025-ci ildə genişmiqyaslı daşqınların vurduğu ziyanın öhdəsindən gəlmək üçün Azərbaycan maliyyə yardımı göstərib.

- Vyetnama qarşıdakı səfərinizdən gözləntiləriniz nələrdir?

- Dost Vyetnama səfərimi səbirsizliklə gözləyirəm. Əminəm ki, bu, Azərbaycan və Vyetnam arasında qarşılıqlı faydalı tərəfdaşlığın dərinləşdirilməsində daha bir mühüm addım olacaq.

Bu gün Vyetnam Cənub-Şərqi Asiyada dinamik inkişaf edən ölkədir, Azərbaycan isə Cənubi Qafqazda əsas logistika və energetika habıdır. Qüvvələrimizi birləşdirərək yeni bazarlara çıxa, birgə layihələr həyata keçirə, biznes və investisiya üçün əlavə imkanlar yarada bilərik. Sözsüz ki, əməkdaşlığımız ölkələrimizə və xalqlarımıza nəzərəçarpan fayda gətirə biləcək böyük quruculuq potensialına malikdir.

Azərbaycançılıq məfkurəsinin formalaşması

Azərbaycançılıq məfkurəsi bizim bütün uğurlarımızın təməlində dayanan fəlsəfədir.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

II məqalə

Azərbaycançılıq ölkəmizdə ictimai-ədəbi fikir meydanına sistemli şəkildə XİX əsrin ikinci yarısından etibarən gəlsə də, bundan əvvəlki dövrlərdəki ümumtürk təfəkkür tərzi ədəbiyyatın milli zəmində inkişafını müəyyən etmisdir. Fikrimizcə, Azərbaycançılıq anlayışının ilkin mərhələsinin rüşeymləri hələ xalqın milli təşəkkülünün formalaşmaqda olduğu qədim dövrlərdən formalaşmağa başlanmışdır. Dilçi alimlərin gəldikləri elmi qənaət bundan ibarətdir ki, "eradan əvvəl Azərbaycanda artıq türk etnosları yaşamış, bu dövrdə Azərbaycan ərazisində türk etnoslarının dilinə məxsus toponimlər və şəxs adları meydana gəlmisdir" (Q.Kazımov). Hələ bizim eradan əvvəl Atropatena dövründən başlayan Azərbaycan adının formalaşma prosesi eramızın yeddinci-səkkizinci əsrlərindən etibarən bir qədər də yetkinləşmişdir. Belə ki, şərqşünas alimlərimiz fərqli formalarda olsa da, "Azərbaycan" kəlməsinin ərəb mənbələrində hələ səkkizinci əsrdən etibarən işlədildiyini qeyd edirlər.

Ölkəmizdə isə VII əsrə aid olan "Kitabi-Dədə Qorqud" eposu möhtəşəm Azərbaycançılıq abidəsidir. Eposda təsvir olunan Qalın Oğuz Eli - Böyük Oğuz dövləti mənasını daşıyır. Qalın Oğuz Elinin coğrafi sərhədləri tarixi Azərbaycanın Anadolu sınırlarındakı Alagöz dağlarından başlayıb, Qərbi Azərbaycan ərazisindəki Göyçə gölündən keçərək Naxçıvandakı Əlincə Qalasına və oradan da Qarabağa, Bərdəyə, Gəncəyə, Dəmir Qapı Dərbəndə qədər uzanan geniş torpaqları əhatə etmişdir. Qalın Oğuz Eli müstəqil Azərbaycan dövlətinin - Azərbaycan ölkəsinin sələfidir. "Kitabi-Dədə Qorqud" eposunda Qalın Oğuz Elinin miladdan əvvəlki birinci minilliyinin ortalarından başlayaraq bizim eranın VII əsrinə qədər davam edən formalaşma prosesi, idarəetmə strukturu və mübarizəsi öz əksini tapmışdır. Bütün bunlara görə xalqımızın Ümummilli liderı Heydər Əliyev tarixi Azərbaycan torpaqlarını "Kitabi-Dədə Qorqud"un vətəni adlandırmışdır.

Hələlik "Azərbaycan" ifadəsinə ölkəmizə aid mənbələrdə ilk dəfə XI əsrdə rast gəlirik. Məlum olduğu kimi, görkəmli Azərbaycan filosofu, XI əsrdə yaşayıb - yaratmış Əbülhəsən Bəhmənyar "Azərbaycani" təxəllüsü ilə yazıb fəaliyyət göstərmişdir. Əbülhəsən Mərzban oğlu Bəhmənyar Azərbaycani universal elmi dünyagörüşünə və elmi xidmətlərinə görə Azərbaycanın Aristoteli kimi şöhrət qazanmışdır.

XI əsrdə görkəmli Azərbaycan alimi Xətib Təbrizi ilə əlaqədar baş vermiş yaddaqalan bir hadisə də Azərbaycan və azərbaycanlı anlayışının qədim tarixi köklərini aydınlaşdırmağa imkan yaradır. Belə ki, görkəmli ərəb alimi və şairi Əbül-Əla əl-Məərrinin yanında dilçilik və ədəbiyyatşünaslıq dərsləri keçən Xətib Təbrizinin qürbətdə təsadüfən rast gəldiyi təbrizli qonşusu ilə doğma Azərbaycan dilində danışması tarixə iz salmışdır. Sonralar məşhur tarixçi Yaqut Həməvi Xətib Təbrizi ilə əlaqədar bu hekayəti olduğu kimi tarixləşdirmişdir. Xətib Təbrizinin dilindən deyilmiş həmin rəvayət aşağıdakı kimidir: "Mən iki il idi ki, onun (Əbul-Əla əl -Məərrinin - İ.H.) yanında idim və şəhərinin adamlarından bu müddətdə heç kimi görməmişdim. Birdən təbrizli qonşularımızdan bir nəfər namaz qılmaq üçün məscidə girdi. Mən onu görən kimi tanıdım və sevindiyimdən çox həyəcanlandım... Əbl-Əla dedi: "Dur, onunla söhbət et"... Ayağa qalxdım və azəri dilində onunla söhbət edib, məni maraqlandıran hər şeyi ondan soruşdum. Elə ki, qayıdıb Əbul - Əlanın yanında oturdum, məndən soruşdu: bu hansı dil idi? Dedim: Azərbaycan əhalisinin dilidir. Dedi: Mən bu dili bilmirəm və söhbətimizi də başa düşmədim. Ancaq danışıqlarımızın hamısının əzbərlədim Sonra o qonşumla etdiyimiz söhbətin hamısını artırıb-əskiltmədən olduğu kimi təkrar etdi".

Əslində qədim dövr və orta əsrlərdə Azərbaycanın görkəmli ədəbiyyat və elm xadimlərinin təxəllüs kimi qəbul etdikləri "Təbrizi", "Gəncəvi", "Naxçıvani", "Şirvani" və sair kimi ölkəmizin coğrafiyası ilə bağlı olan yer bildirən ifadələr də geniş mənada "Azərbaycani" sözünün danışıldığı mənanı özündə əks etdirir. Bundan başqa, Məhəmməd Füzulinin "Hədiqətüs-süəda" əsərində konkret olaraq "Azərbaycan" kəlməsi işlədilmişdir. Eyni zamanda, qədim dövr və orta əsrlər Azərbaycan ədəbiyyatında, xüsusən poema janrında yazılmış bədii əsərlərdə Gəncə, Təbriz, Marağa, Bərdə, Naxçıvan, Şamaxı və başqa yaşayış yerlərinin adlarının çəkilməsi də ədəbiyyatda Azərbaycan mövzusunun əks-sədası demək idi.

XII əsrdən etibarən Azərbaycan anlayışı əsasən ədəbiyyat vasitəsi ilə formalaşma prosesi keçirmişdir. Belə ki, Qədim və orta əsrlər Azərbaycan poeziyasında "səbki-Azərbaycani" üslubu-nun geniş yer tutması xalqımıza məxsus ədəbiyyatı ümumtürk və Şərq-müsəlman poeziyası məka-nında fərqləndirmiş, ön mövqeyə çıxarmış, böyük sənət miqyasına çatdırmısdır. XII əsrdə meyda-na gəlmiş "səbki-farsi"dən fərqli olaraq "Azərbaycan səbkisi" şeirdə təntənəli poetik üslubla bə-rabər, ayıqlıq və ağlın təntənəsi motivlərini də göstərməyi tələb edirdi. Bundan basqa, ictimai-si-yasi xarakter daşıyan qəsidədən qəzələ keçid də "səbki-Azərbaycan"ın mühüm özünəməxsusluq-larından biri idi. Qədim dövrdə və orta əsrlərdə Azərbaycan poeziyası ilə yanaşı, farsdilli şeirdə də bu səbki üstün yer tutmusdur. "səbki-Azərbaycani" üslubunda yazan şairlər ağlın, kamalın üstünlüyünü və dünyanın sirlərini ədəbiyyatda əks etdirmiş, elm və peşə istilahlarına şeirdə geniş yer vermiş, ənənəyə çevrilmişlər. Ədəbi ənənəyə uyğun olaraq, fars dilində yazan Nizami Gəncəvi, Əfzaləddin Xaqani Şirvani, Mücəreddin Beyləqani, Qətran Təbrizi, Fələki Şirvani, Seyid Yəhya Bakui, Şeyx Səfiəddin Ərdəbili, Şəms Təbrizi, Əşrəf Marağalı və başqaları "Azərbaycan səbkisi" yolu ilə gedərək, müdriklik nümunəsi olan, ilhamdan və idrakdan doğan əsərləri ilə ədəbiyyatımızı zənginləşdirmişlər. "Səbki-Azərbaycani" üslubu Azərbaycan ədəbiyyatında azərbaycançı ədəbi ənənənin əsaslarını formalaşdırmışdır.

Bundan basqa, XIII-XVI əsrlərdə Azərbaycan dilində yaranmış poeziya türk dünyasında milli şeirin mükəmməl örnəkləri kimi qəbul edilmisdir. Bu ədəbi-tarixi mərhələ Azərbaycanda özünün İzzəddin Həsənoğlu, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai kimi dahi sənətkarlarını, Nəsirəddin Tusi səviyyəsində görkəmli elm xadimini yetirmişdir. XIII əsrdə Azərbaycan ədəbi dili formalaşmışdır. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatında isə xalq şeiri ilə yazılı şeir dili arasındakı fərq aradan qalxmış, poeziyada ciddi xəlqiləsmə prosesləri getmisdir. Molla Pənah Vaqifin lirikasındakı "Kür qırağının əcəb seyrangahı"nın, Qıraqbasan qışlağının tə-rənnümünün timsalında Azərbaycan coğrafiyası şeirdə qabarıq şəkildə görünməyə baslamış və tədricən inkişaf etdirilmisdir. XIX əsrdə və XX əsrin əvvəllərində isə realist ədəbiyyatın ön cəb-həni təmsil etməsi ölkənin geniş coğrafi bütövlüyünü, xalqın isə konkret olaraq öz adı və dəyərləri ilə ədəbiyyatda istirakını zəruri faktora çevirmisdir. Dahi Mirzə Fətəli Axundzadə (1812-1878) Azərbaycan ədəbi-ictimai fikrinə Azərbaycançı ideyanın böyük təməllərini yaratmışdır. Bu günün mövqeyindən yanaşdıqda Mirzə Fətəli Axundzadənin məşhur dram əsərləri möhtəşəm Azərbaycançılıq abidələridir. "Kəmalüddövlə məktubları" mütəfəkkir Mirzə Fətəli Axundzadənin yaratdığı mükəmməl ədəbi-fəlsəfi azərbaycançılıq manifestidir. Mirzə Fətəli Axundzadənin "Kəmalüddövlə məktubları" və Cəlil Məmmədquluzadənin "Anamın kitabı" dramı Azərbaycan idealının qoşa sütunları və qoşa zirvələridir. XIX əsrin sonları və XX əsrin əvvəllərindən etibarən Azərbaycan dili və Azərbaycan xalqı anlayışlarını ifadə edən sözlərin mət-buatda və ədəbiyyatda islədilməsi ilə ölkəmizdə gələcək Azərbaycançılıq məfkurəsinin əsasları yaradılmısdır.

Azərbaycançılıq anlayışının formalaşmasında dövlətçilik faktoru da mühüm rol oynamışdır. Doğrudur, Atabəylər və Şirvanşahlar dövlətlərində rəsmi olaraq Azərbaycan dili faktorundan istifadə olunmamışdır. Lakin Azərbaycan feodal dövlətlərinin saray mühitində fəaliyyət göstərmiş şairlər əsərlərini əsasən fars dilində yazsalar da, açıq şəkildə ədəbi məclislərdə ana dilində danışmaq və yazmaq məhdudiyyəti qoyulmamışdır. XVI əsrdə Səfəvilərin hakimiyyəti dövründə isə rəsmi yazışmalarda Azərbaycan dilindən istifadə olunmuşdur. Bundan başqa, Səfəvilər dövlətində Azərbaycan mədəniyyətinin, miniatür sənətin, aşıq şeirinin inkişaf etdirilməsi sahəsində mühüm addımlar atılmışdır ki, bunlar da öz növbəsində Azərbaycan anlayışını dövlət tədbirləri miqyasına daşımışdır. Bu mənada Səfəvilər dövləti zamanı həyata keçirilmiş tədbirlər Azərbaycan ideyasının dövlət miqyasına çıxarılması ideyasının başlanğıcı kimi mühüm əhəmiyyət kəsb edir. Bununla belə, uzun dövr ərzində Azərbaycan feodal dövlətlərində Azərbaycançı meyllər davamlı olmamışdır. Xüsusən, dövlət idarəçiliyi sahəsində birləşdirici faktor kimi fars dilinin ön mövqeyə çəkilməsinə üstünlük verilməsi Azərbaycan anlayışının keçici xarakter daşımasına səbəb olmuşdur.



Parçalanma amilinin olmasına baxmayaraq, XVIII əsrdə yaranmış Azərbaycan xanlıqlarında azərbaycançı məfkurə canlanmış, ana dilinin meydanı genişlənmiş, xalq ədəbiyyatına, aşıq sənətinə maraq qüvvətlənmişdir. Çar Rusiyasının müstəmləkəçilik siyasətini həyata keçirdiyi dövrdə də ölkədə genişlənməkdə davam edən maarifçilik hərəkatı Azərbaycançı ideyanın inkişafına stimul vermişdir. Məhz bu mərhələdə Azərbaycanda ilk dəfə olaraq milli teatrın (1873) və milli mətbuatın - "Əkinçi" qəzetinin yaranması (1875-1877) nəticə etibarilə Azərbaycançı ideyanın xitabət kürsüsü qazanmasına səbəb olmuşdur. Bu isə öz növbəsində milli məfkurənin inkişaf etdirilməsində çox mühüm hadisə idi.

Göründüyü kimi, XIX əsrin sonlarına qədər nə rəsmi dövlət sənədlərində, nə də ədəbiyyatda və hətta danışıqda da Azərbaycan dili və Azərbaycan xalqı ifadələri islədilməmisdir. Azərbaycançılıq anlayışı üçün mühüm şərt olan xalqın və onun dilinin necə adlandırılması XIX əsrin axırlarından etibarən meydana çıxmısdır. Ona görə də, Azərbaycançılıq anlayışının meydana gəlməsində XIX əsrin axırları və XX əsrin əvvəlləri xüsusi mərhələ təşkil edir. Məhz bu mərhələdə 1882-1920-ci illərdə Azərbaycançılıq üçün zəruri olan Azərbaycan dili, Azərbaycan xalqı anlayışları mətbuatda və ədəbiyyatda açıq şəkildə işlədilmiş, tədricən bu ifadələr Azərbaycan dilinin leksik tərkibinə daxil olmuşdur. İlk dəfə olaraq görkəmli publisist və ictimai xadim Məhəmməd ağa Şahtaxtlı (1846-1931) 1882-ci ildə "Qafqaz" qəzetində çap etdirdiyi "Mü-səlmanlarda məktəb həyatı" adlı məqaləsində "Bizi necə adlandırmalı" sualına cavab verməklə, Azərbaycan dilinin leksikasına "azərbaycanlı" kəlməsini gətirmisdir. Məqalədə deyilir: "Bizdə Qafqazda bu sözün mənası bir qədər dəyişikliyə uğramısdır, bu adla məshur irqə aid olan müsəl-manları məhz Zaqafqaziya tatarları bilirik.

...Necə olubsa, bir şəkildə milliyyət anlayışımızı itirərək özümüzü milliyyətimizlə yox, müxtəlif millətlər və dillərin də aid olduqları dinimizlə adlandırmağa baslamışıq.

Yaxşı olardı ki, bizim özümüz kimi, basqa xalqlar da bizi dinimizdən gələn yox, milli mənsu-biyyətimizdən gələn bir adla çağırsınlar. Beləliklə də "müsəlman" sözü sadəcə dini anlamda isti-fadə olunar və din və millət kimi iki fərqli anlayışın qarısdırılmasına son qoyular.

Onda bizi necə adlandırsınlar? Bizim dilimizdən söhbət gedəndə biz onu ya türk dili, ya da türkcə adlandırırıq - ikisi də eyni şeydir, belə ki, hər ikisi türk ismindən yaranmış sifətdir. Bizim qonşularımız... da bizi türk adlandırırlar. Bu mənada biz türk adlana bilərdik, lakin bu sözün icti-maiyyət tərəfindən qəbul edilməsi üçün lazımdır ki, ruslar da bizi belə çağırsınlar. Amma böyük ehtimalla ruslar onu qəbul etməyəcəklər. Çünki bizi tanıyana qədər onlar və bütün avropalılar bu adla Osmanlı türklərini adlandırmağa öyrəsmislər. Biz tatar adlanmayacağıq, çünki bu söz bizi vəhşi adlandırmaq üçün istifadə olunur. Xalqı zorla milliyyətimizi müəyyənləsdirmək və hazırda et-noqrafiya və linqvistikada istifadə olunan azərbaycanlı sözü ilə adlandırmaq olmaz ki? Ola bilsin ki, nə vaxtsa ədəbiyyatda və rəsmi cəmiyyətdə bu söz qəbul edildi".

Bu, ölkəmizdə azərbaycanlı anlayışının mahiyyətinin elmi-publisist şəkildə adlandırılması baxımından ilk mükəmməl addımdır. Almaniyada və Fransada ali təhsil almış, bir çox xarici dillərdə yazıb-oxuyan Məhəmməd ağa Şahtaxtlının xalqımızın azərbaycanlı adlandırılması haqqındakı mülahizələri Azərbaycançılıq ideyası hərəkatının strateji məqsədlərini özündə əks etdirir.

Maarifçi-publisist Məhəmməd ağa Şahtaxtlı "Kaspi" qəzetindəki "Zaqafqaziya müsəlman-larını necə adlandırmalı" (1891) adlı məqaləsində Azərbaycan mövzusuna bir qədər də geniş mövqedən yanasmısdır. Bu məqalədə xalqımızın necə adlandırılması ilə yanaşı, dilimizin adının müəyyənləşdirilməsi də ilk dəfə olaraq ictimai mühitin gündəminə gətirilmişdir: "Hansı xalqa məxsusdur və hansı dildə danışır sualına Zaqafqaziya müsəlmanı bas-qa cavab vermir, yalnız deyir ki, o müsəlmandır və müsəlmanca danışır.

Son vaxtlar Zaqafqaziya müsəlmanlarına onların dillərinə görə yox, xalqlarına görə ad ver-məyə çalışaraq Zaqafqaziya islam əhlini Qafqazda rus dilində tatar adlandırmağa baslamısdılar. Amma bu yeniliyi heç cür uğurlu hesab etmək olmaz. Zaqafqaziya müsəlmanlarının danısdığı dil tatar dili deyil, türk dilidir ki, o da öz növbəsində əsas dialektlərə ayrılır: osmanlı, səlcuq və azər-baycanlı türkcələri.

Zaqafqaziya müsəlmanlarını azərbaycanlılar, onların dilini isə Azərbaycan dili adlandırmaq çox yerinə düşərdi Onları həm Şərq yazıçıları, eləcə də Avropa coğrafiyaçıları və etnoqrafları basqa adla yox, ancaq Azərbaycan türkləri adlandırırlar.

Ona görə də Zaqafqaziya müsəlmanlarını azərbaycanlı, Zaqafqaziya türk dilini isə tatar dili əvəzinə Azərbaycan dili adlandırmaq məqsədəuyğun olardı".

Məhəmməd ağa Şahtaxtlı məqaləsində ölkəmizin coğrafi sərhədlərinə dair də, epizodik şəkildə olsa da, diqqət yetirmişdir. Onun "Böyük bir hissəsi İranın və Rusiyanın payına düşmüş Azərbaycan mahalı indiki Zaqafqaziyadır" - mülahizəsində Cənubi Qafqazın əksər quberniyalarında azərbaycanlı əhalinin yaşaması faktoru əsas kimi qəbul edilmişdir. Məqalənin çap olunduğu 1891-ci ildə Zaqafqaziya inzibati ərazi baxımından Qafqaz canişinliyi quberniyalar şəkilində rəsmiləşdirildiyinə görə və mərkəzi idarəetmə üsulundan istifadə olunduğu üçün ölkənin ərazisini göstərmək məqsədilə coğrafi faktor deyil, əhalinin yayılma arealı əsas zəruri prinsip hesab edilmişdir.

Beləliklə, Məhəmməd ağa Şahtaxtlının Azərbaycançılıq sahəsində atdığı ilk addımlar bu ideyanın əsas ana xətlərinin müəyyən edilməsində mühüm rol oynamışdır. Qısa müddət ərzində Məhəmməd ağa Şahtaxtlının ümumi şəkildə ifadə edilən "azərbaycançılar" anlayışından Azərbaycan dili və Azərbaycanın tarixi coğrafiyası kimi ölkə ərazisi məsələsi qənaətinə gəlib çatması XIX əsrin axırlarına doğru milli-mənəvi dəyərlərin və ideyaların nə qədər böyük sürətlə gündəmdə yer tutduğunu əyani şəkildə göstərir. Belə mülahizələr az sonra Azərbaycan milləti, yaxud Azərbaycan xalqı anlayışlarının da ön mövqeyə çıxmasına təkan vermişdir.

Dövri mətbuatda Məhəmməd ağa Şahtaxtlının milli kimlik və ana dili məsələsinə dair başladığı mühüm iş qısa müddətdə əks-səda doğurmuş və genişləndirilmişdir. "Kəsköl" qəzetin-dəki "Azərbaycanlı" imzalı müəllifin "Avam gəzmək yuxu yatmaqmı dedin?" məqaləsində ilk dəfə olaraq "Azərbaycan milləti" sözünün işlədilməsi milli-mənəvi özünüdərk proseslərinin rusdilli mətbuatdan xalqın öz ana dilində çap olunan mətbuatının da müzakirə mövzusuna çevrildi-yini göstərir. Məqalədə milli kimlik məsələsinə daha dərindən yanaşma nümayiş etdirilmişdir. "Kəşköl" qəzeti bu məsələni Tiflis vağzalında bir-birinə rast gələn əcnəbi italyan vətəndaşı ilə sadə bir azərbaycanlının hekayəsi kimi təqdim etmişdir:

- "Siz nə millətdənsiniz?
- Müsəlmanam.
- Əfəndim, millət ayrı, din ayrı. Bildim, dininiz islamdır. Ancaq istərdim biləm millətiniz nədir?
- Ancaq, eyib olsa da, gərək dürüst ərz edəm. Mən bilmirəm ki, nə millətdənəm.
- Keçi saqqal əcnəbi geriliyi görüb başladı: - Əfəndim, ərəb, fars, türk, hind, əfqan və qeyriləri bunların hamısı islamdır. Ancaq hər birinin milləti ayrıdır. Mən özüm katolik dinindənəm, ancaq millətim italyandır. Katolik dinində neçə-neçə millətlər var. Firəng, ispan, macar, polyak, nemsə.
- Əfəndim, doğrusu insana nə millətdən olduğunu bilməmək böyük eyibdir. Belə olanda, gərək bilməyəsən atan kimdir, anan kimdir. Bəs sizin tayfada heç elm oxuyan yoxmu? Heç bir qeyri məmləkətə gedən yoxmu? Heç görmüsünüz ki, bu zəmanədə dövlətlər arasında olan cənglərin hamısı millət döyüşüdür? Tacirlərin arasında olan çəkaçək millət davasıdır. Alimlərin arasında olan ədavət millət ədavətidir.
- Xeyr, əfəndim, millət sözü budur ki, sizdən eşidirəm. Heç bu, ləfzi ağzımıza alıb danışmamışıq. Çünki əvvəla bilmirik millətimiz kimdir və əlavə millət qalmaqalından hələ xəbərimiz yoxdur.
- Xəbəri olmamaq avamlıqdır. Siz o tayfa deyilsiniz ki, sizə ruslar "tatar" deyirlər?
- Bəli, ruslar, gürcülər bizə tatar deyirlər.
- Hə, indi bildim ki, siz nə millətsiniz. Siz tatar deyilsiniz... Tatar Krımda, Kazanda olan müsəlmanlardır. Sizin millət Azərbaycandır. Sizin diliniz, adətiniz, xasiyyətiniz tatarlarınkından başqadır.
- Soruşuram, əfəndim, bizə nə millət buyurursunuz?

Əcnəbi gülə-gülə dedi:

- Azərbaycan milləti, əzizim, Azərbaycan !!!
- Həqiqət, əvvəl dəfədir ki, eşidirəm, bizə Azərbaycan milləti deyirlər. Eşitmişəm ki, İranda Arazın o tayında bir Azərbaycan məmləkəti var.
- Bəli o məmləkətin tayfası Siz ilə bərabər Azərbaycan millətidir. Siz qədim tayfasınız. Sizin tarixnamələrdə neçə-neçə hekayətləriniz var.

mərhələləri və müasir dövr

Bir az fikirdən sonra dedim:

- Əfəndim, milləti bilməmək avamlıqdandır, avam gəzməkdir.

- Avam gəzmək yuxu yatmaqdır".

"Kəşkül"ün çap etdiyi "Avam gəzmək yuxu yatmaqmı dedin" məqaləsi azərbaycançılığın təməl şərti olan milli-mənəvi özünədərkə, milli kimliyə çağırışın həyəcan təbilidir. Bu, dövrü mətbuatda Azərbaycan milləti ifadəsinin işlədildiyi ilk məqalə kimi də mühüm əhəmiyyətə malikdir. Beləliklə, Azərbaycan ədəbi-ictimai mühitində "azərbaycanlılar" anlayışının ardınca "Azərbaycan milləti" ifadələri də meydana çıxmışdır. XIX əsrdə "millət" anlayışının gündəmə gətirilməsi Azərbaycanda baş verən kapitalist münasibətlərinin və genişlənən maarifçilik hərəkatının doğurduğu reallıq idi. Bu, Azərbaycançılıq baxımından ölkəmizin ədəbi-ictimai fikrinin XIX əsrdə gəlib çatdığı ən uca nöqtə idi.

"Avam gəzmək yuxu yatmaqmı dedin" məqaləsinin "Azərbaycanlı" gizli imzası ilə yazılması da Azərbaycançılıq baxımından böyük maraq doğurur. İlk növbədə bu, "Kəşkül" qəzetinin azərbaycançı mövqeyinin mətbu ifadəsidir. İkincisi, "Azərbaycanlı" gizli imzası "Avam gəzmək yuxu yatmaqmı dedin" məqaləsində irəli sürülən Azərbaycan milləti ifadəsinə adekvat olan əyani nümunədir. Gizli imza müəllifi bununla başa salmaq istəyirdi ki, məqaləni yazan şəxsdən tutmuş onu oxuyana qədər hər kəs Azərbaycanlıdır, Azərbaycan millətinin nümayəndəsidir. Üçüncü isə "Azərbaycanlı" imzası "Avam gəzmək yuxu yatmaqmı dedin" məqaləsini yazan müəllifin azərbaycançı baxışlarının ifadəsidir. Araşdırmalar göstərir ki, "Azərbaycanlı" gizli imzasından istifadə edən "Kəşkül"ün baş redaktoru Cəlal Ünsizadədir ki, o bir müddət sonra "Azərbaycan" adlı qəzet nəşr etmək üçün də rəsmi dairələrə müraciət etmiş, lakin məqsədinə nail ola bilməmişdir. XIX əsrin axırlarında Çar Rusiyasının rəsmi dairələri "Azərbaycan" adlı qəzetin nəşrinə heç cür icazə verməzdi.

XX əsrin əvvəllərində Azərbaycançı ideya yeni mərhələyə qədəm qoymuşdur. "Asiyanın oyanması" ilə səciyyələn bu tarixi dövrdə artıq "Haradır Azərbaycan" sualına konkret cavab axtarılmış, Azərbaycançı baxış daha da dərinləşdirilmişdir. Bu dövrdə meydana çıxmış böyük de-mokrat ədib Cəlil Məmmədquluzadənin "Azərbaycan" (1917) məqaləsi milli kimlik dərsliyi qə-dər anlaşıqlı, əhatəli, təsirli və əhəmiyyətlidir. Məqalədə ilk dəfə olaraq Azərbaycan dili və Azərbaycan xalqı kimi digər mətləblərlə yanaşı, "Haradır Azərbaycan" sualına da cavab verilmişdir: "Bəzi vaxt otururam və papağımı qabağıma qoyub fikrə gedirəm, xəyalata cumuram və özümdən soruşuram ki:

- Mənim anam kimdir?

Öz-özümə cavab verirəm ki:

- Mənim anam rəhmətlik Zəhrabanu bacı idi.

- Dilim nə dilidir?

- Azərbaycan dilidir.

- Yəni Vətənim haradır?

- Azərbaycan vilayətidir.

- Haradır Azərbaycan? Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən, qalan hissələri də Gilandan tutub, qədim Rusiya hökuməti ilə Osmanlı hökuməti daxilindədir ki, bizim Qafqazın böyük parçası ilə Bəyəzid-dən (Şərqi Anadoludan - İ.H.) ibarət olsun".

Vaxtilə Şah İsmayıl Xətainin qılıncı ilə cızdığı Azərbaycan xəritəsinin sərhədlərini Cəlil Məmmədquluzadə qələmi ilə çəkmişdir. Bu, - Azərbaycan mətbuatı tarixində "Azərbaycan" sözünün sərlövhəyə çıxarıldığı ilk məqalədir. Bu, Azərbaycanın ilk mətbu xəritəsidir. Nəhayət, "Azərbaycan" məqaləsi Cəlil Məmmədquluzadənin Azərbaycan ideyasını yeni mərhələyə çatdırmaq üçün göstərdiyi mühüm xidmətdir. "Azərbaycan" məqaləsi Cəlil Məmmədquluzadənin Azərbaycançı mövqeyinin epiqrafıdır. Böyük demokrat-ədib 1917-ci ildə yazdığı "Cümhuriyyət" adlı məqaləsində ölkəsi üçün arzu etdiyi dövlət quruluşunun da xarakteri barədə görüşlərini cəmiyyətə çatdırmışdır: "Cümhuriyyət, yəni latınca respublika elə bir hökumətə deyirlər ki, orada məmləkətin idarəsi camaatın öz öhdəsində və ixtiyarındadır. Camaat dedikdə vətənin sahibidir. Məmləkət müəyyən qanunlar ilə idarə olunur. O qanunları yazan və təsdiq edən millətin məbusları, yəni vəkilləridir. Məmləkətin rəisinə "Prezident" deyilir. Prezidenti ya millət özü seçir, ya parlaman, yəni millət vəkilləri seçir.

... Cümhuriyyət idarəsinin bir zinəti də var ki, o da tamam azadlıqdır. Bu azadlıq da bir neçə qismdir. Əvvələn, etiqad azadlığı; ikincisi - yığıncaq azadlığı; üçüncüsü - birləşmək azadlığı; dördüncü - çap eləmək; beşinci - danışmaq; altıncı - siyasi partiyalar düzəltmək və yeddinci - dilbir olub, həmtəqdir olmaqdır.

Budur Cümhuriyyətin vacib əsasları!

Vətəndaşlar, bir tamaşa edin bu gözəl nemətlərə!

Əgər bizdə vətəndaşlıq hissi ölməyibsə - və güman edirəm ki, ölməyib, o vədə gərək uca səs ilə cümhuriyyət qəhrəmanlarını alqışlayıb deyək: Yaşasın Cümhuriyyət"!



Azərbaycan ideyası XX əsrin əvvəllərində ədəbi cəhətdən milli ədəbiyyat konsepsiyası səviyyəsinə çatdırılmısdır. Cəlil Məmmədquluzadənin məşhur "Anamın kitabı" (1920) dramı Azərbaycan idealının manifesti kimi meydana çıxmışdır. "Anamın kitabı" - Azərbaycanın milli istiqlal kitabıdır. Əsərdəki Zəhrabəyim Ana Azərbaycan xalqının ümumiləşdirilmiş bədii obrazıdır. "Anamın kitabı"ndakı Gülbaharın monoloqu Azərbaycanın müstəqilliyinin, milli-mənəvi birliyi və oyanışının, milli kimliyin dərk olunmasının dramatik uvertürasıdır: "Yer, göy, aylar və ulduzlar göylərdə seyr edib, gəzə-gəzə yenə əvvəl-axır günün başına dolanırlar. Çünki bunlar hamısı qədim əzəldən gündən qopub ayrılmış parçalardır.

Mən etiqad edirəm ki, mənim də qardaşlarım dünyada hər yanı gəzib dolaşsalar, gənə əvvəl-axır anaları Zəhranın ətrafında gərək dolanalar. Çünki ay və ulduz şəmsin parçaları olan kimi, bunlar da analarının ayı və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin həmin qanunu pozmaq istəyə. Onun insafı və vicdanı ona müdamül-həyat əziyyət edəcək. Nə qədər canında nəfəs var, peşman olacaq"

Bu, Azərbaycan xalqının ideya-siyasi və millimənəvi birliyi haqqında böyük ürək ağrısı və mütəfəkkir düşüncəsi ilə səsləndirilmiş haray səsidir, çağırışdır. Bütün bunlara görə Cəlil Məmmədquluzadənin "Anamın kitabı" dramını möhtəşəm Azərbaycançılıq dərsləri adlandırmaq olar.

XX əsrin əvvəllərində Azərbaycançılıq məfkurəsinin ideoloqları xalqımızın nicatı məsələsinin müxtəlif siyasi-ideoloji istiqamətlərdə görmüşlər. Belə ki, Nəriman Nərimanov Azərbaycanın nicat yolunu bolşevik Rusiyasında görmüşdür. Məmməd Əmin Rəsulzadə nicat yolu baxımından əvvəlcə bolşevizm ideyalarına ümid bəsləmiş, sonra xilası türkçülükdə axtarmış, nəhayət, Azərbaycançılıq idealının ən düzgün yol olduğu qənaətində olmuşdur. Cəlil Məmmədquluzadə və mollanəsrəddinçilər isə milli istiqlal mübarizəsində Azərbaycan xalqına istinad etməyi, milli kimlik məsələsini əsas olaraq ictimai-siyasi arenaya çıxarmağı, respublika tipli müstəqil dövlət qurmağı müdafiə etmişlər. Tarixi proseslər mollanəsrəddinçilərin daha haqlı olduğunu göstərir.

Azərbaycanda milli istiqlal ideyası XX əsrin əvvəllərində ictimai fikrin gündəmində mühüm yer tutmusdur. Cəlil Məmmədquluzadənin başçılıq etdiyi "Molla Nəsrəddin" hərəkatı milli istiqlal uğrunda mübarizə ideyasının formalasdırılması və xalqa çatdırılması yolunda bir ordudan çox xid-mət göstərmisdir. Hətta Azərbaycançılıq baxımından liberal mövqe tutan, türkçülük və islamçılıq ideyalarını təbliğ edən füyuzatçılar da Azərbaycanda milli istiqlalın qaçılmazlığını bəyan etmislər. Əli bəy Hüseynzadənin aşağıdakı fikirləri XX əsrin əvvəllərində ölkədə milli istiqlalçılığa münasibəti dolğun şəkildə ifadə edir: "Qafqaz türkləri (azərbaycanlılar - İ.H.) türklərin ən hürriy-yətpərvərləridir. ...Bu məmləkətdə (Azərbaycanda - İ.H.) heç bir qüvvə hürriyyət arzusunu məhv edə bilməz. Heç bir səbr və təzyiq, ...heç bir zülm və sitəm hürriyyət odunu söndürə bilməz. Qaf-qaz hürriyyət aləminin tarixində mühüm rol oynayacaqdır. Bu rolların ən böyüyü Qafqaz və Azər-baycan türklərinə aiddir".

"Azərbaycanın istiqlal mübarizəsi tarixi" kitabının müəllifi Hüseyn Baykaranın aşağıdakı fi-kirləri milli istiqlal ideyasının aparıcı qayə olduğunu nümayiş etdirir: "Qafqaz hadisələri onları (is-tiqlal mücahidlərini - İ.H.) özlərinin öncədən uzaq məqsəd olaraq planlasdırdıqları Azərbaycan is-tiqlalı yoluna sürüklədirdi. Bu vaxtadək Azərbaycan istiqlalına nə rast gəlinmiş, nə də baş verən digər siyasi hadisə olmamısdır. Azərbaycan xalqının ruhundan doğan bu istiqlal hadisəsi tarixin axarı içində öz yerini tapmısdır".

Göründüyü kimi, XX əsrin əvvəllərində Azərbaycan dili və Azərbaycan xalqı anlayışları xalqımızın milli kimliyini müəyyən edən konseptual baxışın ifadəsidir. "Haradır Azərbaycan" sualı isə Azərbaycan uğrunda mübarizə Aktıdır. Milli Azərbaycançı şüur bu anlayışların meydana çıxması, dərk edilməsi və şərh olunması mərhələlərindən keçərək müstəqillik illərində Azərbaycançılıq dövlət ideologiyası dövrünə gəlib çatmışdır. Hazırda Azərbaycan cəmiyyəti ölkəmizdəki bütün xalqları vahid amal ətrafında birləşdirən Azərbaycançılıq ideyasının təntənəsi dövrünü yaşayır.

Sovet hakimiyyəti illərində Azərbaycançılıq vətənpərvərlik adı ilə yaşadılmış və inkişaf etdirilmisdir. Xalq şairi Səməd Vurğunun "Azərbaycan", Süleyman Rüstəmin "Azərbaycana gəlsin", Bəxtiyar Vahabzadənin "Ana dili", Məmməd Arazın "Azərbaycan - dünyam mənim" şeirləri Azərbaycan vətənpərvərliyinin mükəmməl poetik dərsləridir. Bununla belə, XX əsrin yetmişinci illəri ölkəmizdə Azərbaycançılığın ədəbiyyat müstəvisindən dövlət ideologiyasına doğru inkişafı mərhələsidir. Görkəmli dövlət xadimi Heydər Əliyevin Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə Azərbaycançılıq istiqamətində həyata keçirdiyi geniş və ardıcıl tədbirlərlə Azərbaycançılığın ədəbiyyatdan dövlətçilik miqyasına qaldırılması mərhələsi başlanmışdır. Ulu Öndərin 1978-ci ildə Azərbaycan dilini Azərbaycan SSR-nin Konstitusiyasına dövlət dili kimi daxil etdirməsi bu tarixi mərhələnin ən böyük hadisəsidir.

Müstəqillik dövründə isə görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycançılığı dövlət ideologiyası miqyasına çatdırmısdır. Bu, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi və xalqımız qarşısındakı ən böyük xidmətlərindən biridir. "Hamımızın bir vətəni var - bu, Azərbaycandır" - deyən Heydər Əliyev dünya azərbaycanlıları anlayışını siyasi-ideoloji mühitə gətirmiş və xarici ölkələrdə yaşayan həmvətənlərimizi Azərbaycançılıq amalı ətrafında birləşdirmək üçün konkret əməli addımlar atmışdır. "Dünya Azərbaycanlılarının Həmrəylik Günü"nü təsis etməklə Heydər Əliyev dünyanın müxtəlif qitələrində yaşayan azərbaycanlıları vahid amal ətrafında birləşdirmişdir. Dünya Azərbaycanlarının Qurultayının keçirilməsi ideyasının da baş memarı Ümummilli liderimiz Heydər Əliyevdir. Azərbaycan dili və Azərbaycan xalqı anlayışları Heydər Əliyevin ölkəmizdə yaşayan bütün xalqları özündə birləşdirən uzaqgörən dahiyanə kəşfdir. Beləliklə, Azərbaycançılıq uzun əsrlər ərzində ilk dəfə olaraq XX əsrin əvvəllərində ölkə ədəbiyyatının ideya əsası kimi mövcud olmuş və ədəbi-ictimai fikirdə milli ma-raqların ifadə olunmasına meydan açmış, nəhayət, inkişaf edərək müstəqillik dövründə dövlət ideologiyası miqyasına çatdırılmışdır.

Azərbaycançılıq - milli düşüncənin və Vətən anlayışının bir yerdə qavranılması təlimi kimi xalqın və ölkənin milli maraqlarının - maarifçilikdən milli azadlıq ideyalarına, istiqlal mübarizəsi düşüncəsinə, dövlət müstəqilliyi şüuruna qədərki bütün ideallarını qaçılmaz həyati tələbat səviy-yəsinə qaldıran ümummilli məfkurədir. Azərbaycançılıq - milli ədəbiyyatın axarını ölkə maraqla-rına doğru istiqamətləndirən mühüm ədəbi-ictimai təlimdir. Azərbaycançılıq - ədəbiyyatda milli-mənəvi özünüdərk və vətənpərvərlik ideyalarının parlaq bədii təcəssümüdür, Azərbaycançılıq - xalqın hərtərəfli inkişafına xidmət edən ümummilli məfkurədir. Nəhayət, Azərbaycançılıq - xalqın milli istiqlal və müstəqil dövlətçilik ideallarının təcəssümü olan əbədiyaşar təlimdir.

Yeniləşən modern Azərbaycan Respublikası müstəqillik epoxasının müasir mərhələsinin hərtərəfli inkişafının göstəricisidir.

Qalib Azərbaycan - tarixi ərazilərini işğaldan azad etmiş və Böyük Quruculuq hərəkatını uğurla həyata keçirən Azərbaycan xalqının ölkəmizə qazandırdığı yeni ünvandır.

Azərbaycan Respublikasının Prezidenti Müzəffər Ali Baş Komandan İlham Əliyev Qalib xalqın Qalib lideridir.

Güclü Azərbaycan - müstəqil Azərbaycan Respublikasının İlham Əliyev erasının mühüm nəticəsidir.

Daha güclü Azərbaycan - İlham Əliyev erasının yeni tarixi dövrünün əsas hədəfi və strategiyasıdır.

Azərbaycançılıq - müstəqil Azərbaycan Respublikasının dövlət ideologiyasıdır! Müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu Ümummilli lideri Heydər Əliyev Azərbaycançılıq döv-lət ideologiyasının yaradıcısıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycançılıq məfkurəsini müstəqil dövlətin ideologiyası və Azərbaycan xalqının Birlik təlimi miqyasında qiymətləndirir və dönmədən həyata keçirir. Dövlət başçımızın 8 noyabr 2026-cı il tarixdə Zəfər bayramı münasibəti ilə Xankəndidə Zəfər abidəsi önündən səsləndirdiyi aşağıdakı fikirlər Azərbaycançılıq məfkurəsinin bütün mahiyyətini və miqyasını əks etdirir: "Azərbaycançılıq məfkurəsi bizim bütün uğurlarımızın təməlində dayanan fəlsəfədir. Azərbaycançılıq bizi irəli aparan məfkurədir. Azərbaycanda bütün etnik qruplar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır və bizi birləşdirən vətəndaşlıq, həmrəylik və Azərbaycançılıq məfkurəsidir. Bu, bizim milli ideyamızdır Bu, gələcəyə aparan yoldur.

Bu, - Azərbaycançılıq ideologiyasının İlham Əliyev düsturudur.

Bu, - müstəqil Azərbaycan dövlətinin ümummilli ideologiyasının İlham Əliyev modelidir.

Bu, - Azərbaycançılıq ideologiyası və Azərbaycançılıq strategiyasının İlham Əliyev təlimidir.

Bu, - müstəqil Azərbaycanın dövlətçilik ideologiyasının İlham Əliyev modelinin siyasi-nəzəri əsaslarıdır.

Bu, - İlham Əliyev erasının müstəqil dövlətçilik ideologiyasının tezisləridir.

Bu, - müstəqil Azərbaycan dövlətinin və Azərbaycan gerçəkliyinin siyasi-ideoloji simasıdır.

Nəticə olaraq bu, - müstəqil və güclü Azərbaycan idealı ilə Azərbaycançılıq ideologiyası arasında bərabərlik işarəsidir.

Bu, - Azərbaycan cəmiyyətinin daxili mahiyyətini, təkamül proseslərini və inkişaf istiqamətlərini müəyyən edən dövlətçilik Aktıdır.

Müzəffər Ali Baş Komandan İlham Əliyev İkinci Qarabağ - Vətən müharibəsində xalqımızın bütün təbəqələrini vahid amal - Azərbaycançılıq ideyası ətrafında birləşdirərək tarixi Zəfərə nail olmuşdur. Prezident İlham Əliyev dünya azərbaycanlılarının lideri olaraq xalqımızın Birliyi və Həmrəyliyini dövlət siyasəti səviyyəsində uğurla həyata keçirir. Müstəqil Azərbaycan dövlətinin qazandığı nailiyyətlərin əldə olunmasında Azərbaycançılıq idealı xüsusi yer tutur. Hazırda Azərbaycançılıq ideologiyası ölkəmizdə yaşayan xalqları öz ətrafında birləşdirməklə bərabər, həm də böyük gələcəyə vahid amal ətrafında mübarizəyə doğru istiqamətləndirir. İkinci Qarabağ müharibəsi cəbhələrində Azərbaycan Respublikasının vətəndaşı olan ölkəmizdə yaşayan bütün azsaylı xalqların, etnik qrupların mərd oğulları Azərbaycan torpaqlarının Ermənistanın işğalından azad edilməsində qəhrəmanlıqlar göstərmiş, şəhidlər vermişlər. Bu, Azərbaycançılıq ideyasının nə qədər böyük gücə və əhəmiyyətə malik olduğunu göstərən ibrətamiz tarixi faktdır. Dünya azərbaycanlıları ilə əlaqələrin genişləndirilməsi də müstəqillik epoxasının müasir dövrünün reallığı və nailiyyətidir.

Göründüyü kimi, Azərbaycançılıq məfkurəsi uzaq əsrlərin dərinliklərindən davamlı olaraq məsuliyyətli və şərəfli yol keçərək, milli kimlik şüurundan Azərbaycançılıq ideyasına, müstəqil dövlətin ümummilli ideologiyasına və dünya azərbaycanlılarını birləşdirən vahid amala qədər inkişaf etmişdir.

Azərbaycançılıq - vətəndaşlıq və vətənpərvərlik, millilik və mənəvi bütövlük təlimidir.

Azərbaycançılıq - vahid amal uğrunda birgə fəaliyyət göstərmək və mübarizə aparmaq deməkdir.

Azərbaycan - Vətən və ideal, Azərbaycançı - vətəndaşlıq mövqeyi və əqidə birliyi, Azərbaycanşünaslıq - ölkəşünaslıq elmi, Azərbaycançılıq - dövlətçilik ideologiyasıdır.

Azərbaycançılıq Birlik və Həmrəylik rəmzidir.

Azərbaycançılıq məfkurəsi xalqımızı vahid amal ətrafında birləşdirən və istiqamətləndirən ideya kimi daim inkişaf edir, yaşayır, zənginləşdirir və sabahlarımıza gur işıq salır.

İsa HƏBİBBƏYLİ
AMEA-nın prezidenti, akademik

Rəqəmsal hesabatlılıq sisteminə keçid - AMEA-da müşavirə

AMEA-nın Rəyasət Heyətində Akademiyanın elmi müəssisə və təşkilatlarında cari il doktoranturaya qəbulun nəticələrinə, dissertasiya mövzularının müasir dövrün çağırışları əsasında müəyyənləşdirilməsinə və rəqəmsal hesabatlılıq sisteminə keçid məsələlərinə həsr olunmuş müşavirə keçirilib.







AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin sədrliyi ilə keçirilən müşavirədə Rəyasət Heyətinin üzvləri, Rəyasət Heyəti aparatının şöbə müdirləri, elmi katibləri və aidiyyəti şəxslər iştirak ediblər.

Müşavirəni giriş sözü ilə açan akademik İsa Həbibbəyli gənc elmi kadrların hazırlığına hər zaman xüsusi diqqət yetirildiyini, doktoranturaya yeni qəbul olanlara qayğı ilə yanaşılmasının vacibliyini bildirib.

Akademik İsa Həbibbəyli dissertasiya mövzularının müəyyənləşdirilməsi zamanı keyfiyyət meyarlarına diqqət yetirilməsinin zəruriliyini vurğulayıb. Qeyd edib ki, dissertasiya mövzularının müzakirəsi institutların müvafiq şöbələrində, elmi şuralarında, elmi bölmələrdə və Rəyasət Heyətində ardıcıl şəkildə aparılmalı, hər bir mövzu ətraflı təhlil olunmalıdır. Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, dissertasiya mövzularının adlarında Azərbaycan dilinin saflığı qorunmalı, zərurət olmadığı halda xarici mənşəli sözlər və terminlərdən həddindən artıq istifadə edilməməlidir.

AMEA prezidenti, eyni zamanda vurğulayıb ki, dissertasiya mövzularının müəyyənləşdirilməsi zamanı onların aktuallığı və elmi yeniliyi əsas götürülməlidir: "Süni intellekt, rəqəmsal inkişaf, milli-mənəvi dəyərlər, azərbaycançılıq və digər vacib istiqamətlər bu gün elmi tədqiqatların əsas mövzularından birinə çevrilməlidir. Bu mövzular yalnız ayrı-ayrı məqalə və çıxışlarda deyil, institutların elmi-tədqiqat planlarında, dissertasiya mövzularında və illik hesabatlarında da öz əksini tapmalıdır".

AMEA rəhbəri cari hesabat dövründə elmi müəssisələrin fəaliyyətinin qiymətləndirilməsi zamanı ənənəvi elmi istiqamətlərlə yanaşı, yeni texnologiyaların, rəqəmsal metodların və innovativ yanaşmaların tətbiqinin nəzərə alındığını söyləyib. Akademik İsa Həbibbəyli bildirib ki, AMEA-da ənənəvi kağız hesabatlardan rəqəmsal hesabat sisteminə mərhələli keçid nəzərdə tutulur və bu istiqamətdə ilkin mərhələdə dörd elmi müəssisə - Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Folklor İnstitutu, Fəlsəfə və Sosiologiya İnstitutu, Arxeologiya və Antropologiya İnstitutu pilot layihəyə cəlb edilib.

Qeyd olunub ki, rəqəmsal hesabat modelinin hazırlanması istiqamətində AMEA-nın Rəyasət Heyəti aparatının Rəqəmsal Akademiya, Süni intellekt və Elektron xidmətlər şöbəsi tərəfindən müvafiq işlər görülüb, institutların nümayəndələrinin iştirakı ilə müzakirələr keçirilib və sistemin təkmilləşdirilməsi üçün təkliflər nəzərdən keçirilib. Hazırlanan model elmi müəssisələrin fəaliyyətinin müəyyən edilmiş indikatorlar əsasında qiymətləndirilməsinə, nəticələrin daha operativ və şəffaf şəkildə izlənilməsinə imkan verəcək. Akademik İsa Həbibbəyli vurğulayıb ki, rəqəmsal sistemə keçid mərhələli və məqsədyönlü şəkildə həyata keçirilməlidir. Onun sözlərinə görə, əsas məsələ institutların bu istiqamətdə hazırlıq işlərinə başlaması, müvafiq potensialın formalaşdırılması və prosesə fəal qoşulmasıdır.

Akademik İsa Həbibbəyli cari hesabatların dinlənilməsinə ilkin olaraq şöbələrdə başlanıldığını söyləyib. Qeyd edib ki, elmi müəssisənin gücü ilk növbədə onun şöbələrinin elmi potensialı və fəaliyyətinin keyfiyyəti ilə müəyyən olunur. AMEA rəhbəri növbəti mərhələdə hesabatların əvvəlcə institutların Elmi şuralarında, sonra Elmi bölmələrdə, sonda isə Rəyasət Heyətinin iclaslarında dinlənilməcəyini diqqətə çatdırıb. AMEA prezidenti elmi müəssisələrdə keçiriləcək hesabat müzakirələrində Akademiyanın rəhbərliyinin, Rəyasət Heyəti üzvlərinin, elmi-təşkilat və rəqəmsal inkişaf sahələri üzrə məsul əməkdaşların iştirakının vacibliyini vurğulayıb.

Akademik İsa Həbibbəyli hesabatların müzakirəsi zamanı elmi müəssisələrin fəaliyyətinin qiymətləndirilməsi ilə yanaşı, müasir dövrün çağırışlarına uyğun olaraq qarşıda duran vəzifələrin də müəyyənləşdirilməsinin vacibliyinə toxunub.

Müşavirədə qeyd olunan məsələlər ətrafında akademik Gövhər Baxşəliyeva, filologiya elmləri doktoru Sərxan Xavəri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Fariz İmranov, filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov və başqaları çıxış edərək fikirlərini bildiriblər.

Əcəmi 900: İpək Yolu üzərində şəhərsalma mədəniyyəti və memarlıq



Naxçıvan Dövlət Universitetinin Mədəniyyət və Konqres Mərkəzində memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin anadan olmasının 900 illiyinə və "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş "Əcəmi 900: İpək Yolu üzərində şəhərsalma mədəniyyəti və memarlıq" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Konfrans Əcəmi Naxçıvaninin 900 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, eləcə də böyük memarın yubileyinin UNESCO-nun yubileylər proqramında qeyd olunması və ölkəmizdə həyata keçirilən mədəni irsin qorunması siyasəti kontekstində təşkil olunub.

Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin büstünü ziyarət ediblər. Büstün önünə gül dəstələri qoyulub, Ümummilli Liderin əziz xatirəsinə ehtiram ifadə olunub.

Sonra Əcəmi Naxçıvaninin abidəsi ziyarət edilib. Qonaqlar həmçinin "Əcəmi seyrangahı" istirahət kompleksi və Mömünə xatun türbəsində olublar. Memar Əcəmiyə həsr olunmuş kitab sərgisi, eləcə də NDU Memarlıq və mühəndislik və İncəsənət fakültələrinin müəllim və tələbələrinin əl işlərindən ibarət rəsm və memarlıq sərgilərinə baxış keçirilib. Sərgilərdə Əcəmi irsinin zənginliyi, Naxçıvan memarlıq məktəbinin özünəməxsus xüsusiyyətləri və milli-mədəni dəyərlərimiz bədii-estetik şəkildə nümayiş olunub.

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa edilib. Əcəmi Naxçıvani və Nizami Gəncəvinin obrazlarını canlandıran və bu dahilərin yaşadığı dövrü əks edən bədii kompozisiya tədbirə xüsusi rəng qatıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli konfransda çıxış edərək Əcəmi Naxçıvaninin zəngin yaradıcılıq irsinin öyrənilməsi, Naxçıvan memarlıq məktəbinin dünya memarlıq tarixindəki yerinin araşdırılması və tarixi-mədəni irsin qorunmasının əhəmiyyətini vurğulayıb.

Samir Seyidəhmədli "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın Naxçıvanın uzunmüddətli sosial-iqtisadi inkişafı üçün strateji əhəmiyyət daşıdığını qeyd edib. Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Əcəminin 850 illik yubileyinin keçirilməsi və Prezident İlham Əliyevin 900 illik yubileylə bağlı Sərəncamı bu irsə dövlət qayğısının bariz təzahürüdür. Səlahiyyətli nümayəndənin müavini abidələrin rəqəmsal sənədləşdirilməsi, bərpa işlərinin elmi əsaslandırılması və tarixi şəhər mühitinin qorunması istiqamətində birgə tədqiqatların əhəmiyyətini vurğulayıb.

NDU-nun rektoru Elbrus İsayev öz çıxışında Əcəmi Naxçıvaninin 900 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasının və UNESCO tərəfindən beynəlxalq miqyasda anılmasının Azərbaycan memarlıq irsinin dünyada tanıdılması baxımından əhəmiyyətini vurğulayıb. Rektor dahi memarın Azərbaycan və türk-İslam memarlıq tarixindəki mövqeyinə, yaratdığı memarlıq məktəbinin təsir dairəsinə diqqət çəkib. Qeyd edib ki, Əcəminin əsərləri orta əsrlər Azərbaycanında yüksək mühəndislik təfəkküründən, estetik zövqün və inkişaf etmiş şəhərsalma mədəniyyətinin göstəricisidir. İpək Yolunun Naxçıvanın tarixi-mədəni əlaqələrinin inkişafındakı roluna toxunan Elbrus İsayev Əcəmi irsinin müasir şəhərsalma ənənələri ilə əlaqəli şəkildə öyrənilməsinin vacibliyini qeyd edib.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli çıxışında Memar Əcəminin Şərqdə özünəməxsus memarlıq məktəbi yaradan, müxtəlif sənət sahələrini öz yaradıcılığında birləşdirən çoxşaxəli və universal sənətkar olduğunu vurğulayıb. Mömünə xatun, Yusif ibn Küseyir türbələri kimi nadir memarlıq nümunələrinin onun mühəndislik, nəqqaşlıq və xəttatlıq bacarığının vəhdətini əks etdirdiyini diqqətə çatdırıb.

Konfransda iştirak edən Avstriyanın "Atelier Erich Pummer GmbH" şirkətinin direktoru Erich Pummer, Türkiyənin Mimar Sinan Gözəl Sənətlər Universitetinin prorektoru, professor Nezih Recep Aysel və Çinin Anhui Jianzhu Universitetinin professoru Lei Zhang çıxışlarında Əcəmi Naxçıvaninin dünya memarlıq tarixindəki mövqeyindən, Naxçıvan memarlıq məktəbinin bəşəri irsə verdiyi töhfələrdən və tarixi abidələrin qorunmasının əhəmiyyətindən bəhs ediblər. Qonaqlar konfransın yüksək səviyyədə təşkilinə görə minnətdarlıqlarını bildirərək elmi müzakirələrin Əcəmi irsinin daha dərindən araşdırılmasına, memarlıq tarixinin öyrənilməsinə və bu sahədə beynəlxalq elmi əməkdaşlığın genişlənməsinə töhfə verəcəyinə əminliklərini ifadə ediblər.

Tədbir çərçivəsində Naxçıvan Televiziyası tərəfindən hazırlanmış Əcəmi Naxçıvaniyə həsr olunmuş videoçarx nümayiş olunub.

Sonra NDU rektoru Elbrus İsayev tərəfindən tədbirin tərəfdaş qurum rəhbərlərinə və dəvətli qonaqlara təşəkkür plaketləri təqdim olunub.

Konfransın bədii hissəsində NDU-nun müəllimi Əməkdar mədəniyyət işçisi Əkrəm Məmmədli və NDU nəzdində Musiqi Kollecinin müəllimi Hüseyn Mürsəlovun bədii rəhbərliyi ilə universitetdə yeni yaradılmış Qədim Xalq Çalğı Alətləri Ansamblının ifasında rəngarəng musiqi nömrələri təqdim olunub.

Konfrans iki gün davam edib.

Akademik İsa Həbibbəyli:
Əcəmi sənəti Naxçıvan mədəniyyətinin mühüm nişanəsidir

"Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə memar Əcəmi Naxçıvaninin 900 illik yubileyinin doğma diyarı Naxçıvanda qeyd olunması ölkəmizdə mədəniyyətə və tarixi şəxsiyyətlərə dövlət səviyyəsində göstərilən böyük ehtiramın bariz nümunəsidir".



Bu sözləri Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli jurnalistlərə müsahibəsində deyib.

O bildirib ki, Naxçıvan Dövlət Universitetində keçirilən beynəlxalq elmi konfrans Əcəmi sənətinin XXI əsrdə müasir şəraitdə davam etdirilməsi bu sahədə yeni nəslin yetişdirilməsi imkanlarını da diqqətə çatdırır.

Akademik İsa Həbibbəyli qeyd edib ki, Əcəmi sənəti qədim Naxçıvan torpağının intibah mədəniyyətinin mühüm nişanəsi kimi yaşayır. Yubiley ərəfəsində Naxçıvanda memar Əcəminin heykəlinin ucaldılması və Mömünə xatun türbəsinin bərpa olunması da dövlətin tarixi-mədəni irsə göstərdiyi diqqətin ifadəsidir.

AMEA-nın prezidenti sonda onu da vurğulayıb ki, bu beynəlxalq konfrans yalnız tarixi şəxsiyyətlərə ehtiramın nümayişi deyil, həm də yeni Əcəmi sənətkarlarının yetişməsinə, memarlıq ənənələrinin gələcək nəsillərə ötürülməsinə istiqamət verən mühüm elmi platformadır.

Azərbaycan-Gürcüstan elmi-ədəbi əlaqələri yeni inkişaf mərhələsində

AMEA Rəyasət Heyətində Gürcü Ədəbiyyatı İnstitutunun nümayəndə heyəti ilə görüş

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutunun direktoru filologiya elmləri doktoru, professor İrma Ratianinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



AMEA-nın Rəyasət Heyətində keçirilən görüşdə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Memarlıq və İncəsənət İnstitutu ilə Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutunun birgə icra etdiyi "Nizami Gəncəvi və Şota Rustaveli ədəbiyyatda və incəsənətdə" beynəlxalq elmi layihənin gedişi, əldə olunan nəticələr və qarşıda duran vəzifələr barədə müzakirələr aparılıb.

Akademik İsa Həbibbəyli bu layihənin Azərbaycan və Gürcüstan alimlərinin birlikdə həyata keçirdikləri ikinci layihə olduğunu, ilk layihə çərçivəsində işıq üzü görən "Nizami Gəncəvi və Şota Rustaveli" monoqrafiyasının Bakıda, Tbilisidə və Kembricdə Azərbaycan, gürcü və ingilis dillərində kitab halında nəşr olunduğunu xatırladıb. Qeyd edib ki, əldə olunan nəticələr iki ölkənin elmi və ədəbi əlaqələrinin, eləcə də görkəmli ədiblərin milli kimliklərinin beynəlxalq miqyasda tanıdılmasına xidmət edir.

Akademik İsa Həbibbəyli ötən müddət ərzində "Nizami Gəncəvi və Şota Rustaveli ədəbiyyatda və incəsənətdə" layihəsi çərçivəsində görülən işləri yüksək qiymətləndirərək, növbəti nəşrin hazırlanması məsələsinə toxunub. Akademik İsa Həbibbəyli AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun əməkdaşları tərəfindən layihənin növbəti nəşri üçün Nizami Gəncəvinin əsərlərinin süjet və obrazlarının musiqidə, teatrda, kinoda, təsviri sənətdə, memarlıqda və tətbiqi incəsənətdə əksini əhatə edən məqalələr hazırlandığını söyləyib və mövzuları qonaqların diqqətinə çatdırıb.

Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutunun direktoru filologiya elmləri doktoru, professor İrma Ratiani nəşrin strukturunun Azərbaycan və gürcü ədəbiyyatı, eləcə də incəsənət nümunələrinin paralel şəkildə təqdim olunmasını təklif edib. Onun sözlərinə görə, nəşrdə əvvəlcə hər iki xalqın ədəbiyyatı, daha sonra isə incəsənəti ilə bağlı tədqiqatların yer alması nəzərdə tutulur. Bu yanaşma Azərbaycan və Gürcüstan ədəbi-bədii irsinin müqayisəli şəkildə öyrənilməsinə və oxuculara təqdim olunmasına imkan yaradacaq.

Professor İrma Ratiani layihənin növbəti mərhələsində Nizami və Rustavelinin dünya ədəbiyyatında qavranılmasını, onların Şərq və Avropa ədəbi mühitinə təsirinin tədqiq olunmasını təklif edib.

Gürcü Ədəbiyyatı İnstitutunun direktor müavini filologiya elmləri doktoru, professor Maka Elbakidze isə öz növbəsində layihə çərçivəsində peşəkar mütəxəssislər tərəfindən təmsil etdiyi qurumun hazırlıq işləri barədə məlumat verərək musiqi, teatr, kino, ədəbiyyat və təsviri incəsənət sahələrini əhatə edən materialların artıq hazırlandığını, özünün də materialların redaktəsində iştirak etdiyini diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli gürcü alimləri tərəfindən səsləndirilən təklifləri müsbət qarşılayıb, böyük Azərbaycan şairi Nizami Gəncəvi irsinin Avropa ədəbi-mədəni kontekstində öyrənilməsinin vacibliyini qeyd edib.

Görüşdə tərcümə və redaktə işlərinin yekunlaşdırılması, elmi materialların beynəlxalq nəşriyyatlara təqdim edilməsi və gələcək əməkdaşlığın istiqamətləri barədə də fikir mübadiləsi aparılıb.

Çıxışlardan sonra qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə şəkilləri çəkdirilib.

Daha sonra qonaqlar Elmin populyarlaşdırılması şöbəsinin təşkilatçılığı ilə AMEA-nın Rəyasət Heyətinin binası ilə tanış olublar.

Görüşdə Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutunun şöbə müdiri filologiya elmləri doktoru İvane Amirxanaşvili, eləcə də AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov və AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini filologiya elmləri doktoru Mehman Həsənli də iştirak ediblər.

Nizami Gəncəvi və Şota Rustaveli ədəbiyyatda və incəsənətdə

Beynəlxalq elmi layihənin müzakirəsi

AMEA-nın Rəyasət Heyətində Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Memarlıq və İncəsənət İnstitutu və Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutunun birgə icra etdiyi "Nizami Gəncəvi və Şota Rustaveli ədəbiyyatda və incəsənətdə" beynəlxalq elmi layihəsi çərçivəsində növbəti müşavirə keçirilib.



Müşavirəni giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli beynəlxalq elmi əməkdaşlığın dərinləşdirilməsində xüsusi rola malik olan layihənin əhəmiyyətindən danışıb, bu işdə Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutunun və Kembric Universitetinin iştirakını və mühüm töhfələrini xüsusi qeyd edib. İlk layihə çərçivəsində işıq üzü görən "Nizami Gəncəvi və Şota Rustaveli" monoqrafiyasının Bakıda, Tbilisidə və Kembricdə Azərbaycan, gürcü və ingilis dillərində kitab halında nəşr olunduğunu deyib.

Akademik İsa Həbibbəyli bildirib ki, hazırda layihənin dahi Azərbaycan şairi Nizami Gəncəvi və böyük gürcü mütəfəkkiri Şota Rustavelinin zəngin irsinə həsr olunmuş ikinci hissəsi üzrə son işlər gedir. Akademik AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu, Memarlıq və İncəsənət İnstitutu və Gəncə Bölməsinin də layihənin ikinci hissəsinin fəal iştirakçıları olduğunu diqqətə çatdırıb. Vurğulayıb ki, ikinci hissənin mövzuları artıq geniş müzakirə edilib, tədqiqat prosesi uğurla yekunlaşıb və iştirakçı institutların bu barədə təqdim edəcəkləri hesabatlarla mərhələnin tam başa çatdığını hesab etmək olar.

AMEA rəhbəri Rəyasət Heyətində keçirilən ötən görüşdə layihənin üçüncü və dördüncü hissələrinin də əsas istiqamətlərinin müzakirə edildiyini bildirib. Akademik İsa Həbibbəyli qeyd edib ki, birinci istiqamət kimi Nizami Gəncəvi və Şota Rustavelinin tipoloji müqayisəli təhlili aparılıb, ikinci istiqamət kimi isə "Nizami və Rustaveli Şərq-Qərb ədəbiyyatında" mövzusu təklif olunub. Onun sözlərinə görə, indiyədək geniş tədqiq olunmayan, həm orijinal, həm də elmi baxımdan mühüm əhəmiyyət kəsb edən bu iki mövzu dərindən təhlil ediləcək və bu mövzular layihənin üçüncü və dördüncü hissələrinin mövzularını təşkil edəcək.

Sonra çıxış edən Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor İrma Ratiani akademik İsa Həbibbəyliyə layihəyə göstərdiyi böyük dəstəyə görə dərin təşəkkürünü bildirib. Gürcü Ədəbiyyatı İnstitutu tərəfindən layihənin rəhbər heyəti və iştirakçıları barədə məlumat verib. Professor bildirib ki, işçi qrupuna ədəbiyyatşünaslarla yanaşı, digər elm sahələrinin təmsilçiləri də daxil edilib. Gələcək fəaliyyətlə bağlı fikirlərini bölüşən İrma Ratiani seçilən yeni mövzuların bir daha müzakirə olunacağını diqqətə çatdırıb. Alim nəşrdə Azərbaycan və gürcü ədəbiyyatı, eləcə də incəsənət nümunələrinin paralel şəkildə təqdim olunacağını qeyd edib.

Daha sonra Memarlıq və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə çıxış edərək institut tərəfindən layihəyə cəlb olunan iştirakçıları təqdim edib. O, ümumilikdə 5 hissədən ibarət olan layihənin strukturunda Azərbaycan və gürcü xalqlarının zəngin incəsənət irsinin, memarlıq və təsviri sənət ənənələrinin hərtərəfli əks olunduğunu bildirib.

Gürcü Ədəbiyyatı İnstitutunun direktor müavini, filologiya elmləri doktoru, professor Maka Elbakidze isə öz növbəsində layihə çərçivəsində görülən işlər barədə məlumat verərək musiqi, teatr, kino, ədəbiyyat və təsviri incəsənət sahələrini əhatə edən materialların sistemləşdirildiyini və tamamlama işlərinin uğurla aparıldığını deyib. O, layihənin bu yaxınlarda tam yekunlaşacağını bildirib və Gürcüstan tərəfindən layihənin təşkilati strukturu barədə məlumat verib.

İclasda layihədə təmsil olunan institutların nümayəndələri - AMEA Gəncə Bölməsinin elmi işlər üzrə sədr müavini, filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarov, Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru İvane Amirxanaşvili, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırova, filologiya elmləri doktoru Zəhra Allahverdiyeva və başqaları layihə ilə bağlı fikirlərini bölüşüblər. Həmçinin layihədə yer alan məruzələrin mövzuları sadalanıb və geniş fikir mübadiləsi aparılıb.

Müzakirələrə yekun vuran akademik İsa Həbibbəyli dekabr ayında layihənin nəticələrinə həsr olunmuş onlayn iclasın keçiriləcəyini qeyd edib. Eyni zamanda, ötən il AMEA-nın Gəncə Bölməsində layihə ilə bağlı keçirilən beynəlxalq konfransın uğurlarını xatırladaraq qarşıda duran vəzifələrin icrası ilə bağlı tövsiyələrini verib.

Ədəbiyyat İnstitutu akkreditasiyadan müvəffəqiyyətlə keçib

Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu növbəti mühüm uğura imza atıb. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) Rəyasət Heyətinin qərarı ilə institut dövlət akkreditasiyasından uğurla keçib və elmi müəssisəyə şəhadətnamə təqdim edilib.





Ədəbiyyat İnstitutunun Elmi şurasının Dövlət akkreditasiyasının yekunları və institusional inkişaf istiqamətləri üzrə keçirilən genişləndirilmiş iclasında AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri, iqtisad elmləri doktoru, professor Famil Mustafayev, Akkreditasiya üzrə Ekspert Şurasının sədri, filologiya elmləri doktoru, professor Mahirə Hüseynova, AAK-ın səlahiyyətli əməkdaşları, Ədəbiyyat İnstitutunun Elmi şurasının üzvləri və şöbə müdirləri iştirak ediblər.

Əvvəlcə foyedə Ədəbiyyat İnstitutunun nəşrlərindən ibarət sərgiyə baxış olub.

Tədbirdə çıxış edən akademik İsa Həbibbəyli elmi mühitin inkişafı, mövcud problemlər və qarşıda duran hədəflər ətrafında vacib məqamlara toxunub.

Akademik İsa Həbibbəyli çıxışında sovet dövründə klassiklərimizin, dövlət xadimlərinin, eləcə də xalq qəhrəmanlarının həyat və fəaliyyətinin işıqlandırılmasında müşahidə olunan durğunluq və boşluqları diqqətə çatdırıb. Qaçaq Nəbi, Koroğlu, Səttarxan və digər görkəmli tarixi şəxsiyyətlər haqqında bədii nümunələr və dastanlar yaransa da, onların həyat və fəaliyyətləri elmi-tarixi müstəvidə hələ də dərindən və sistemli şəkildə öyrənilmədiyini deyib. Ədəbiyyatşünaslıqda yalnız məşhur simaların deyil, həmçinin xalqın milli maraqlarına, vətənə sevgi və milli duyğulara xidmət edən digər tarixi şəxsiyyətlərin də həyat və fəaliyyətinin elmi dövriyyəyə daxil edilməsinin vacibliyini vurğulayıb.

Beynəlxalq elmi əlaqələr və kadr potensialına toxunan akademik İsa Həbibbəyli Yaponiya, Çin, Monqolustan, Hindistan və digər ölkələrin ədəbiyyatı ilə Azərbaycan ədəbiyyatını müqayisəli şəkildə tədqiq edən, həmin xalqların dillərini mükəmməl bilən mütəxəssislərin hazırlandığını diqqətə çatdırıb, dünya ədəbiyyatşünaslığı ilə inteqrasiyanın gücləndirilməsinin vacibliyini qeyd edib.

Akademik İsa Həbibbəyli akkreditasiya prosesini qurumlararası əməkdaşlığın növbəti addımı kimi qiymətləndirib, prosesin təşkili və həyata keçirilməsinə görə Komissiyaya və Akkreditasiya üzrə Ekspert Şurasına təşəkkürünü bildirib. O, akkreditasiya prosesini İnstitutun fəaliyyətinin qiymətləndirilməsi baxımından müsbət dəyərləndirərək bu prosesin İnstitutun fəaliyyətinin səmərəliliyinin artırılmasında, çatışmazlıqların vaxtında aradan qaldırılmasında və verilmiş tövsiyələrin nəzərə alınmasında mühüm istiqamətverici rol oynadığını vurğulayıb.

İclasda çıxış edən Ali Attestasiya Komissiyasının sədri, professor Famil Mustafayev bildirib ki, təmsil etdiyi müəssisənin əsas vəzifəsi elmi müəssisələrin fəaliyyət göstərdiyi dövrdə elmi dərəcə və elmi adların verilməsi olub. Sədr qeyd edib ki, 2019-cu ildən etibarən ölkə qanunvericiliyinə uyğun olaraq Ali Attestasiya Komissiyasına yeni əsasnamə ilə əlavə səlahiyyətlər verilib və bunların da ən əsası elmi müəssisələrin akkreditasiyasının təşkilidir. Avropa İttifaqının akkreditasiya modellərini öyrənmək məqsədilə Avstriya və Xorvatiyaya səfərlər həyata keçirdiklərini xatırladan professor Famil Mustafayev həmçinin prosesin mexanizmindən danışaraq əlavə edib ki, bu işin qurulması üçün əsas yol müəssisənin özünüqiymətləndirmə ilə bağlı sualların verilməsi olub. Müəssisə həmin suallara cavabları hazırladıqdan sonra xüsusi akkreditasiya üçün müəyyən olunmuş və kənardan cəlb edilən ekspertlərdən ibarət ekspert şurası həmin məsələləri yerində yoxlayıb. Komissiya sədri indiyədək 10-dan çox müəssisədə akkreditasiya prosesinin həyata keçirildiyini və Ədəbiyyat İnstitutu da daxil olmaqla cəmi dörd müəssisənin akkreditasiyadan uğurla keçdiyini bildirib.

Akkreditasiya üzrə Ekspert Şurasının sədri, filologiya elmləri doktoru, professor Mahirə Hüseynova çıxışında akkreditasiya zamanı təqdim olunan sənədlər və elmi materiallarla bağlı fikirlərini bölüşərək prosesin obyektiv və şəffaf şəkildə həyata keçirildiyini vurğulayıb, qiymətləndirmənin nəticələri və İnstitutun fəaliyyəti ilə bağlı əsas məqamları diqqətə çatdırıb. Akkreditasiya müddətində təqdim olunan bütün sənədləri və elmi materialları yüksək qiymətləndirən professor hər bir tədqiqat işinin əhəmiyyətli olduğunu qeyd edərək Ədəbiyyat İnstitutuna və iştirakçılara uğurlar arzulayıb.

Sonda Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri professor Famil Mustafayev akkreditasiya haqqında şəhadətnaməni Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyliyə təqdim edib.

Professor İsmayıl Məmmədlinin 80 illik yubileyi



AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda tanınmış alim, filologiya elmləri doktoru, professor İsmayıl Məmmədlinin 80 illik yubiley tədbiri keçirilib.



Tədbirdə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli professor İsmayıl Məmmədlinin elmi yaradıcılığında xalq həyatına, milli-mənəvi dəyərlərə və Azərbaycan dilinin zənginliyinə bağlılığın xüsusi yer tutduğunu vurğulayıb. Qeyd edib ki, alimin tədqiqatlarında xalqın məişətini, adət-ənənələrini və həyat tərzini əks etdirən dil materiallarının öyrənilməsi mühüm istiqamətlərdən birini təşkil edir.

AMEA rəhbəri professor İsmayıl Məmmədlinin elmi fəaliyyətinin çoxşaxəli olduğunu söyləyib. Akademik İsa Həbibbəyli alimin tədqiqatlarının yalnız leksikologiya ilə məhdudlaşmadığını, onun etnolinqvistika və onomologiya sahələrində də araşdırmalar apardığını və çoxsaylı kitabların, monoqrafiyaların, lüğət və elmi məqalələrin müəllifi olduğunu vurğulayıb. Alimin elmi-pedaqoji fəaliyyətindən bəhs edən AMEA prezidenti onun 30-dan artıq yetirməsinin olduğunu, bir sıra nəşrlərin elmi redaktoru və rəyçisi kimi də fəaliyyət göstərdiyini qeyd edib.

Akademik İsa Həbibbəyli İsmayıl Məmmədlinin Azərbaycan dilinin etnoqrafik leksikasına həsr olunmuş doktorluq dissertasiyasını və onun əsasında ərsəyə gələn kitabını Azərbaycan dilçiliyinin əhəmiyyətli elmi nailiyyətlərindən biri kimi səciyyələndirib. Bildirib ki, bu tədqiqat alimin elmi fəaliyyətində mühüm mərhələ olmaqla yanaşı, Azərbaycan dilinin xalq həyatından qaynaqlanan leksik zənginliyinin öyrənilməsinə də dəyərli töhfədir.

Çıxışında İsmayıl Məmmədlinin alim və şəxsiyyət kimi səciyyəvi xüsusiyyətlərindən danışan akademik İsa Həbibbəyli onun sadəliyini, səmimiliyini, ədalətliliyini və xalqına bağlılığını xüsusi vurğulayıb. O, yubilyarın həm elmi fəaliyyəti, həm də insani keyfiyyətləri ilə cəmiyyət içində böyük hörmət qazandığını diqqətə çatdırıb.

Sonda akademik İsa Həbibbəyli professor İsmayıl Məmmədlini 80 illik yubileyi münasibətilə təbrik edərək ona möhkəm cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıb. Akademiya prezidenti professor İsmayıl Məmmədliyə AMEA-nın Fəxri Fərmanını təqdim edib.

Sonra AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli çıxış edərək professor İsmayıl Məmmədlinin 80 illik yubileyinin yalnız bir alimin ömür yolunun deyil, həm də Azərbaycan dilçiliyinə həsr olunmuş mənalı həyatın təntənəsi olduğunu vurğulayıb. Bildirib ki, İsmayıl Məmmədlinin 80 illik ömür yoluna nəzər saldıqda Azərbaycan dilinin və dilçilik elminin müəyyən bir dövrünün canlı mənzərəsi ilə qarşılaşırıq. Alimin bütün fəaliyyətini sözə həsr etdiyini deyən Nadir Məmmədli sözün xalqın yaddaşı, tarixi, düşüncəsi və dünyagörüşü olduğunu, onun mənasını və məna çalarlarını dəqiq müəyyənləşdirərək lüğətdə təqdim etməyin böyük bilik, səbir və zəhmət tələb etdiyini qeyd edib.


O, professor İsmayıl Məmmədlinin Azərbaycan lüğətçiliyinin inkişafında xüsusi xidmətlərini diqqətə çatdıraraq onun "Azərbaycan dilinin orfoqrafiya lüğəti", "Yeni sözlər və yeni mənalar lüğəti", "Azərbaycan dilinin məcazlar lüğəti" kimi mühüm nəşrlərin hazırlanmasında iştirakını, dördcildlik "Azərbaycan dilinin izahlı lüğəti"nin ərsəyə gəlməsinə verdiyi töhfəni vurğulayıb. Direktor, həmçinin alimin "Azərbaycan dilinin etnoqrafik leksikası", "Ekran, efir və dilimiz", "Qəzet dilinin leksikası", "Axtarışlar, yozumlar, anımlar" əsərlərini, Səməd Vurğun və Cəfər Cabbarlının bədii dilinin lüğətlərinin hazırlanmasında əməyini yüksək qiymətləndirib.

"Professor İsmayıl Məmmədli yalnız zəngin elmi irsi ilə deyil, həm də Azərbaycan dilçiliyində özünəməxsus lüğətçilik məktəbi yaratması ilə seçilir", - deyə professor Nadir Məmmədli bildirib.

İnstitut direktoru lüğətçilik fəaliyyətinin böyük səbir, dəqiqlik və məsuliyyət tələb etdiyini qeyd edərək professor İsmayıl Məmmədli bu keyfiyyətləri öz fəaliyyətində birləşdirən alimlərdən olduğunu vurğulayıb, yubilyara gələcək fəaliyyətində uğurlar arzu edib.

Tədbirdə filologiya elmləri doktoru Baba Məhərrəmli "Azərbaycan dilçiliyində İsmayıl Məmmədli imzası", professor Sayalı Sadıqova "Azərbaycan dilçiliyində İsmayıl Məmmədlinin tədqiqat istiqamətləri", filologiya elmləri doktoru Nəriman Seyidəliyev "Azərbaycan dilçiliyində İsmayıl Məmmədlinin lüğətçilik fəaliyyəti", filologiya üzrə fəlsəfə doktoru, dosent Xədicə Heydərova "Sözə ömür verən, ömrünü sözə həsr edən alim", filologiya üzrə fəlsəfə doktoru, dosent Elçin İsmayılov "Professor İsmayıl Məmmədli şəxsiyyəti və Azərbaycan dilçiliyi" mövzularında məruzələrlə çıxış ediblər.

AMEA prezidentinin videomüraciəti beynəlxalq folklorşünaslıq konfransının açılış mərasimində təqdim olunub



Noyabrın 18-də Azərbaycan-özbək folklor əlaqələri çərçivəsində "Türk xalqları folklorunun müqayisəli öyrənilməsi problemləri" mövzusunda keçirilən beynəlxalq elmi konfransın açılış mərasimində AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin videomüraciəti təqdim olunub.

Akademik İsa Həbibbəyli videomüraciətində konfransın türk dünyasının inteqrasiyasının gücləndiyi müasir dövrdə keçirilməsinin xüsusi aktuallıq daşıdığını vurğulayıb. O, konfransın əsas məqsədinin Azərbaycan və özbək xalqlarının ortaq dəyərlərinin, mənəvi sərvətlərinin, ədəbiyyat və folklor ənənələrinin tarixi köklərinin elmi əsaslarla araşdırılması olduğunu qeyd edib. Akademik iki ölkə arasında dövlət başçılarının imzaladığı sənədlər və həyata keçirilən ardıcıl siyasət nəticəsində genişlənən münasibətlərin elmi əməkdaşlıq üçün də yeni imkanlar yaratdığını diqqətə çatdırıb. Akademik İsa Həbibbəyli folklorşünas və türkoloq alimlərin üzərinə düşən vəzifələrin ortaq mədəni irsin tədqiqi ilə yanaşı, müasir elmi problemlərin birgə araşdırılmasını da əhatə etdiyini bildirib. Konfransın türkoloji tədqiqatların inkişafına və Azərbaycan-Özbəkistan elmi əlaqələrinin möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini ifadə edərək tədbirə uğurlar arzulayıb.

Qeyd edək ki, 18 noyabr 2026-cı il tarixində Azərbaycan-özbək folklor əlaqələri çərçivəsində "Türk xalqları folklorunun müqayisəli öyrənilməsi problemləri" mövzusunda beynəlxalq elmi konfrans işə başlayıb. Konfrans Azərbaycan Milli Elmlər Akademiyası, Özbəkistan Respublikası Elmlər Akademiyası, AMEA Folklor İnstitutu və Özbəkistan Respublikası Elmlər Akademiyasının Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutunun birgə təşkilatçılığı ilə onlayn formatda keçirilir.

Beynəlxalq elmi konfransın həmsədrləri AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli və Özbəkistan Elmlər Akademiyasının prezidenti, akademik Şavkat Ayupovdur.


Noyabrın 18-20-ni əhatə edən konfransın əsas məqsədi Azərbaycan və özbək xalqları arasında folklor əlaqələrinin, ortaq türk folklor irsinin, ənənə və motivlərin tarixi-müqayisəli, tarixi-genetik və tipoloji aspektlərdən araşdırılması, müqayisəli folklorşünaslığın aktual nəzəri-metodoloji problemlərinin müzakirəsi və elmi əməkdaşlığın genişləndirilməsidir.

Konfrans, həmçinin Azərbaycan və Özbəkistan folklorşünaslarının gələcək birgə tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsinə, eləcə də Əməkdaşlıq Memorandumunda 2027-2028-ci illər üçün nəzərdə tutulan "Müqayisəli folklorşünaslıq" monoqrafiyasının hazırlanması üçün elmi-nəzəri bazanın formalaşdırılmasına xidmət edir.

Tədbir çərçivəsində türk xalqlarının ortaq folklor nümunələri, folklor ənənələri arasındakı qarşılıqlı əlaqə və təsirlər, eləcə də folklorun müqayisəli tədqiqinin nəzəri və metodoloji məsələləri ətrafında elmi müzakirələr aparılıb.

Akademik İsa Həbibbəyli yaradıcılığında memarlığa dair nəzəri fikirlər

AMEA-nın prezidenti və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəhbəri, akademik İsa Həbibbəylinin elmi fəaliyyəti təkcə ədəbiyyatşünaslıqla məhdudlaşmır, həm də onun elmi axtarışları sənətşünaslığın, xüsusən də memarlığın nəzəri-estetik problemlərini də əhatə edir. O, bədii təfəkkürlə memarlıq formalarının qarşılıqlı əlaqəsini sintetik sənət nəzəriyyəsi müstəvisində təhlil etmişdir. Akademikin yaradıcılığında sənətlərin sintetikliyi ideyası mühüm yer tutur. Akademikin elmi baxışına görə, memarlıq "daşlaşmış musiqi" olmaqla yanaşı, həm də xalqın tarixi hafizəsinin bədii-məkansal təcəssümüdür. O, bədii mətndə məkansal quruluşun və memarlıq obrazlarının mətnyaratma funksiyasını xüsusi qeyd edir.



Alimin fikrincə, bədii əsərdə təsvir olunan memarlıq obyektləri təkcə fonsuz dekorasiya deyil, semantik yük daşıyan obrazlı strukturdur. Burada, milli üslub və kimlik də akademikin tədqiqatlarında ön plana çəkilir və Naxçıvan memarlıq məktəbi (Mömünə Xatun türbəsi, Qarabağlar kompleksi) milli təfəkkürün və estetikanın zirvəsi kimi qiymətləndirilir.

Yeri gəlmişkən qeyd edək ki, akademik İsa Həbibbəylinin nəzəri irsində Naxçıvan memarlıq məktəbi və onun dahiyanə banisi Əcəmi Naxçıvani fenomeni müstəsna yer tutur. Müəllif Naxçıvan memarlıq abidələrini təkcə mühəndislik və inşaat sənətinin təzahürü kimi deyil, birbaşa milli mənəviyyatın, məkansal təfəkkürün və estetik idealların daşlaşmış təcəssümü kimi səciyyələndirir. İsa Həbibbəyli Əcəmi Naxçıvaninin yaradıcılıq prinsiplərini klassik ədəbi mətndəki forma və məzmun vəhdəti ilə müqayisə edir. İsa Həbibbəylinin təhlillərində Mömünə xatun türbəsi və Qarabağlar memarlıq kompleksi kimi şah əsərlərdə monumentallıqla incə ornamentallığın sintezi, ritm və simmetriya qanunauyğunluqları bədii mətnyaradan strukturlarla paralellik təşkil edir.

Akademik İsa Həbibbəyli göstərir ki, Orta əsr Naxçıvan türbələri və memorial abidələri dövrün fəlsəfi-estetik fikrinin, kəlam və təsəvvüf dünyagörüşünün memarlıq dilinə köçürülmüş nüsxəsidir. Abidələrin üzərindəki epiqrafik yazılar, həndəsi naxışlar və mütənasib ölçülər memarlığın poetik tektonikasını formalaşdırır.

Naxçıvan memarlıq məktəbinin bədii-üslub xüsusiyyətləri akademikin tədqiqatlarında Azərbaycan xalqının milli kimliyini və mənəvi varisliyini qoruyub saxlayan mühüm məkansal amil kimi qiymətləndirilir. Bu abidələr həm də regional memarlıq ənənənin ümummilli mədəniyyət kontekstindəki yerini müəyyən edən nəzəri meyara çevrilir. İsa Həbibbəyli Əcəmi Naxçıvaninin Mömünə xatun məqbərəsini Azərbaycan memarlığının daş "Xəmsə"si adlandırmışdır. Bu, həm də Mömünə xatun məqbərəsinin sənəkarlıq cəhətdən hansı yüksək səviyyədə olmasının qiymətləndirilməsi deməkdir.

Akademik İsa Həbibbəylinin tədqiqatlarında Əcəmi Əbubəkr oğlu Naxçıvani həm də universal qabiliyyətlərə malik olmasına da xüsusi diqqət yetirmişdir. O, Əcəmi Naxçıvaninin Mömünə xatun məqbərəsindəki ornamentlərə görə mahir rəssam, şəbəkələrin ustad nəqqaş, kusi yazılarını - nadir xəttat, inşaat texnologiyalarına əsasən böyük mühəndis olduğunu göstərmişdir. İsa Həbibbəylinin fikrincə Mömünə xatun məqbərəsinin inşaat materialları xüsusi gil torpaqla yumurtanın qarışığı əsasında hazırlanmışdır ki, bu da Əcəmi Naxçıvaninin dövrünün əl kimya elminə də bələd olduğunu nümayiş etdirir.

İsa Həbibbəyli Mömünə xatun məqbərəsinin baş tağındakı "Biz gedirik ancaq qalır rüzigar, Biz ölürük əsər qalır yadigar" sözlərinin həm ilk dəfə olaraq qafiyələnmiş şeir misraları olduğunu və həm də fəlsəfi fikir ifadə etdiyini nəzərə çatdırmışdır. Bunlar Əcəmi Naxçıvanidən şair və filosof kimi də bəhs etməyə əsas verir. Nəhayət, Mömünə xatun məqbərəsinin möhtəşəm bir Ana abidəsi olması da İsa Həbibbəyli tərəfindən XI əsrdə Azərbaycanda qadına bəslənilən yüksək münasibətin əyani təcəssümü kimi qiymətləndirilmişdir. Ən nəhayət, İsa Həbibbəyli doğru olaraq bu fikirdədir ki, Mömünə xatun məqbərəsi mühüm dövlətçilik abidəsidir. Məqbərədə Atabəylər dövlətinin hökmdarları olmuş Şəmsəddin Eldəgizin və Məhəmməd Cahan Pəhləvanın adlarının yazılması bu əzəmətli abidənin dövlətçilik nümunəsi kimi də danışmağa əsas verir. Bütün bunlar, Əcəmi Naxçıvaninin çoxcəhətli universal qabiliyyətləri və nadir istedadı ilə fərqləndiyini sübut edir. Və həmin universal qabiliyyətlərini, həmçinin Mömünə xatun, Yusif Kuseyir oğlu kimi mükəmməl memarlıq abidələrinə və adı ilə bağlı ənənələrin bu gün də davam etdirilməsinə görə İsa Həbibbəyli doğru olaraq Əcəmi Naxçıvaninin türk-müsəlman dünyası memarlıq məktəbinin banisi olduğunu sübut etmişdir.

Nəticə etibarı ilə qeyd edək ki, akademik İsa Həbibbəylinin yaradıcılığında memarlığa dair nəzəri fikirlər Azərbaycan sənətşünaslığının və fəlsəfi-estetik fikrinin zənginləşməsinə xidmət edir. Ədəbiyyatşünaslıqla memarlığın kəsişməsində irəli sürülən nəzəri müddəalar xalqın mənəvi və maddi mədəniyyətinin vəhdətdə öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Rizvan QARABAĞLI
memarlıq üzrə fəlsəfə doktoru, dosent

AMEA Yer Elmləri Bölməsinin iclası

AMEA-nın Yer Elmləri Bölməsinin növbəti iclası keçirilib.



İclasda "Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 23 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair 2027-2030-cu illər üçün Dövlət Proqramı" və Azərbaycan geologiya elminin proqramdan irəli gələn vəzifələri müzakirə edilib.

AMEA-nın vitse-prezidenti akademik İbrahim Quliyev tədbiri açaraq "Azərbaycan Respublikasında dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair 2027-2030-cu illər üçün Dövlət Proqramı" haqqında məlumat vermiş və onun Azərbaycan geologiya elminin qarşısında qoyduğu vəzifələrdən, ölkənin dağ-mədən və metallurgiya sənayesinin rəqabətqabiliyyətli inkişafının təmin edilməsində, ixracyönümlü yüksək texnologiyalı metallurgiya sənayesi üçün etibarlı xammal bazasının formalaşdırılmasında, iqtisadiyyatın qeyri-neft sektorunun əhəmiyyətli tərkib hissəsi olan bu mühüm sahədə dəyər zəncirinin dərinləşdirilməsində və istehsalının genişləndirilməsində elmi müəssisələrin iştirak istiqamətlərindən bəhs etmişdir.

AMEA Yer Elmləri Bölməsinin elmi katibi Sadıx Nəbiyev iclas iştirakçılarını proqramın əsas müddəaları ilə tanış etmiş, elmi tədqiqat müəssisələrinin və ali məktəblərin alim və mütəxəssislərin metallurgiya sənayesi üçün əhəmiyyət kəsb edən mövcud yataqlarda, perspektivli sahələrdə geoloji axtarış, kəşfiyyat, ehtiyatların qiymətləndirilməsi və dəqiqləşdirilməsi işlərinə daha geniş yer ayrılmasını iclas iştirakçılarının diqqətinə çatdırmışdır.

AMEA-nın müxbir üzvü Tələt Kəngərli yeni, perspektivli faydalı qazıntı yataqlarının aşkar edilməsi və mövcud yataqların ehtiyatlarının dəqiqləşdirilməsi üsullarının təkmilləşdirilməsi və yeni elmi metodlarının işlənilməsi, strateji əhəmiyyətli mineralların, o cümlədən nadir torpaq elementlərinin axtarışı üçün ölkədə geoloji kəşfiyyat işlərinin təşkilinin yaxşılaşdırılması və əhatəsinin genişləndirilməsi, müvafiq elmi tədqiqatların genişləndirilməsi üçün geologiya ixtisası üzrə tələbə qəbulunun və elmi kadr hazırlığının yaxşılaşdırılmasının vacib olduğunu vurğulamışdır.

Geoloji məlumatların hazırlanması və təqdim edilməsi, perspektivli yataqlar üzrə geoloji kəşfiyyat nəticələrinin və mineral resursların ehtiyatlarının qiymətləndirilməsi üzrə beynəlxalq hesabatlılıq standartlarının və onların tətbiqi təcrübəsinin öyrənilməsi və təcrübəyə uyğunlaşdırılmasının əhəmiyyətindən danışan AMEA-nın müxbir üzvü Dadaş Hüseynov Naxçıvandakı boksit təzahürlərinin və nadir torpaq elementlərinin kompleks öyrənilməsinin, Geologiya İnstitutunun laboratoriya və cihaz bazasının yenilənməsi və təkmilləşdirilməsinin zəruri olduğunu qeyd etmişdir.

AMEA-nın müxbir üzvü Qurban-Yetirmişli və AMEA-nın müxbir üzvü Qalib Əfəndiyev proqramda dağ-mədən və metallurgiya sənayesində beynəlxalq standartlara uyğun laboratoriyanın yaradılmasının nəzərdə tutulduğunu bildirmiş, bunun üçün müvafiq elmi kadr və elmi cihaz bazasına malik elmi tədqiqat müəssisələrinin, ali məktəblərin potensialından istifadə olunmasını təklif edərək, bu addımın gələcəkdə müvafiq sahə üçün peşəkar kadrların hazırlanmasında da əhəmiyyətli ola biləcəyini qeyd etmişlər.

Çıxışlara qoşulan akademik İbrahim Quliyev elmi tədqiqatlarda rəqəmsal texnologiyaların və müasir geoloji kəşfiyyat texnologiyalarının, o cümlədən süni intellekt, məsafədən monitorinq sistemləri, rəqəmsal əkiz (Digital Twin), avtomatlaşdırılmış mədən idarəetməsi və böyük verilənlərə əsaslanan analitik həllərin tətbiqinin genişləndirilməsi zərurətindən bəhs etmiş, Yer elmləri sahəsində ixtisaslaşmış elmi tədqiqat müəssisələrində və ali məktəblərin müvafiq profilli strukturlarında toplanmış geoloji məlumatların rəqəmsallaşdırılması və vahid mərkəzdə toplanmasını təklif etmişdir.

İclas iştirakçıları sahənin dayanıqlı və rəqabətqabiliyyətli inkişafının təmin olunması üçün elmi potensialın gücləndirilməsi, elm-təhsil-istehsal əməkdaşlığının genişləndirilməsi, ixtisaslı insan kapitalının formalaşdırılması, kadr hazırlığının sənayenin tələblərinə uyğunlaşdırılması, araşdırma və inkişaf fəaliyyətlərinin dəstəklənməsi, elmi tədqiqat planlarında, magistr dissertasiyalarının mövzularının müəyyən edilməsi prosesində tətbiqi elmi mövzulara geniş yer verilməsi, dağ-mədən (metal filizləri) və metallurgiya sənayesi üzrə elmi potensialın artırılması məsələləri ətrafında öz rəy və təkliflərini bildirmişlər.

Bölmənin iclasında "Azərbaycan Respublikasında dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair 2027-2030-cu illər üçün Dövlət Proqramı"ından irəli gələn vəzifələrin Azərbaycan geologiya elminin 2027-2030-cu illər üçün prioritet istiqamətləri hesab edilməsi qərara alınmış, Azərbaycan Respublikasının geoloji öyrənilmə səviyyəsinin yüksəldilməsi, ölkədə dağ-mədən və metallurgiya sənayesinin etibarlı xammal bazasının formalaşdırılması və rəqabətqabiliyyətli inkişafını təmin edilməsi məqsədilə Yer elmləri sahəsində ixtisaslaşmış elmi tədqiqat müəssisələrinə və ali məktəblərin müvafiq profilli strukturlarına tövsiyələr qəbul edilmişdir.

Akademik: Süni intellekt qlobal siyasət və təhlükəsizlik amilinə çevrilir



Süni intellekt ötən əsrin 40-cı illərindən etibarən tədricən inkişaf edərək böyük elmi potensial və texnoloji nailiyyətlər sayəsində müasir imkanlar səviyyəsinə yüksəlib. Hazırda bu sahədə yeni inkişaf mərhələsi başlayır ki, bu da bəşəriyyət qarşısında həm geniş imkanlar açır, həm də ciddi çağırışlar yaradır.

AMEA-nın vitse-prezidenti, Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru akademik Rasim Əliquliyev süni intellektin yaranma tarixi və inkişaf mərhələləri, kiberorqanizmlərin (kiborqların) gələcəyi, əşyaların interneti texnologiyaları, eləcə də müasir texnoloji inkişafın yaratdığı qlobal təhlükələr barədə fikirlərini bölüşüb. Alim "Süni super intellekt nədir?" və "Gələcəyin texnologiyaları" kimi aktual suallara da aydınlıq gətirib.

R.Əliquliyev bildirib ki, süni intellektin inkişafında ilkin mərhələ dar çərçivəli intellektlə (Narrow Intelligence) bağlıdır. Bu sistemlər konkret və məhdud məsələlərin həlli üçün nəzərdə tutulur. Növbəti mərhələ insanın müxtəlif sahələrdəki intellektual fəaliyyətini yerinə yetirmək imkanına malik olacaq süni ümumi intellektin formalaşmasıdır. Daha sonrakı mərhələdə isə insan intellektini üstələyən süni super intellektin meydana çıxması ehtimal edilir.

R.Əliquliyev vurğulayıb ki, süni ümumi və super intellektin inkişafı gələcəkdə insan cəmiyyəti ilə yeni texnoloji sistemlər arasında münasibətlərin necə qurulacağı məsələsini aktuallaşdırır. Süni intellekt artıq yalnız texnoloji yenilik deyil, həm də qlobal siyasət və təhlükəsizlik baxımından strateji əhəmiyyət daşıyan amildir. Buna görə də onun fəaliyyətinin idarə olunması, etik prinsiplərinin və hüquqi çərçivəsinin müəyyənləşdirilməsi vacibdir.

Akademik qeyd edib ki, insanlarla birgə işləmək üçün nəzərdə tutulan robotların - kobotların (əməkdaşlıq robotlarının) tətbiq dairəsi də genişlənəcək. İnsan cəmiyyətinin etik normalarına və hüquqi mexanizmlərinə uyğun fəaliyyət göstərən belə robotlar, məsələn, tibb bacılarının bəzi funksiyalarını yerinə yetirə biləcəklər.

O diqqətə çatdırıb ki, dördüncü sənaye inqilabının texnologiyaları insan orqanizmi ilə daha sıx inteqrasiya olunur. Bu istiqamətdə texnoloji vasitələrin köməyi ilə funksiyasını itirmiş insan orqanlarının fəaliyyətinin bərpası imkanları da diqqət mərkəzindədir. Beləliklə, insan və texnologiya arasında qarşılıqlı əlaqə yeni mərhələyə qədəm qoyur.

R.Əliquliyevin sözlərinə görə, yaranan risklərin qarşısının alınması dünya alimlərinin və texnoloji şirkətlərin birgə fəaliyyətini zəruri edir. BMT səviyyəsində və aparıcı dövlətlərdə də bu məsələlərlə bağlı narahatlıqlar ifadə olunur, süni intellektin inkişafının tənzimlənməsi istiqamətində təşəbbüslər irəli sürülür. Süni intellektin tənzimlənməsi onun inkişafının dayandırılması deyil. Əsas məqsəd mümkün təhlükələri əvvəlcədən müəyyənləşdirmək və onların qarşısını alan alqoritmlər hazırlamaqdır. Hazırda alimlər cəmiyyətin təhlükəsiz inkişafını təmin etmək üçün etibarlı süni intellekt sistemləri, eləcə də bu texnologiyaların idarə olunmasına imkan verən yeni mexanizmlər üzərində çalışırlar.

Akademik İradə Hüseynova: Milli dirçəlişin əsas dayaqlarından biri elmin və təhsilin inkişafıdır

Milli dirçəliş anlayışı dövlətçilik ənənələrinin və milli-mənəvi dəyərlərin qorunması, cəmiyyətin elmi-intellektual potensialının gücləndirilməsi, yeni biliklərin yaradılması və innovasiyaların inkişafı ilə sıx bağlıdır. Müasir dünyada ölkələrin rəqabət qabiliyyətini müəyyən edən əsas amillərdən biri elmi nailiyyətlər, texnoloji yeniliklər və insan kapitalıdır.



Bu fikirləri açıqlamasında Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya İnstitutunun direktoru akademik İradə Hüseynova söyləyib.

Akademik qeyd edib ki, müstəqil Azərbaycanın davamlı inkişafı, beynəlxalq elmi məkanda mövqeyinin möhkəmləndirilməsi və innovativ iqtisadiyyatın formalaşdırılması üçün fundamental elmlərin inkişafı strateji əhəmiyyət daşıyır. Elmi tədqiqatlara diqqətin artırılması, müasir laboratoriya infrastrukturunun yaradılması, qabaqcıl texnologiyaların tətbiqi və elmi kadr potensialının gücləndirilməsi bu istiqamətdə mühüm vəzifələrdəndir.

Onun sözlərinə görə, xüsusilə molekulyar biologiya, genetika, biotexnologiya, biokimya və bioinformatika kimi sürətlə inkişaf edən elm sahələri müasir dünyanın qarşısında duran qlobal problemlərin həllində mühüm rol oynayır. Bu sahələrdə əldə olunan nəticələr səhiyyə, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, biomüxtəlifliyin qorunması və ətraf mühitin mühafizəsi baxımından yeni imkanlar yaradır.

Akademik vurğulayıb ki, elmi inkişafın əsas şərtlərindən biri gənc nəslin tədqiqatçılıq fəaliyyətinə cəlb edilməsi, onlarda elmi təfəkkürün, araşdırma bacarıqlarının və innovativ yanaşmanın formalaşdırılmasıdır. Gənclərin müasir elmi metodlara yiyələnməsi, beynəlxalq tədqiqat layihələrində iştirakı və dünya elminə inteqrasiyası ölkənin gələcək elmi potensialının təmin olunmasında mühüm əhəmiyyət kəsb edir.

Alim diqqətə çatdırıb ki, milli elmin inkişafında beynəlxalq əməkdaşlığın genişləndirilməsi, qabaqcıl tədqiqat mərkəzləri ilə əlaqələrin möhkəmləndirilməsi və Azərbaycan alimlərinin qlobal elmi proseslərdə fəal iştirakının təmin edilməsi də mühüm istiqamətlərdəndir. Elmi nəticələrin beynəlxalq jurnallarda dərc olunması, birgə tədqiqatların aparılması və innovativ layihələrin həyata keçirilməsi ölkəmizin elmi potensialının dünyada tanıdılmasına, eləcə də milli elmin yeni inkişaf mərhələsinə yüksəlməsinə xidmət edir.

Akademik bildirib ki, Milli Dirçəliş Günü cəmiyyətin inkişafında biliyin, elmin və intellektual gücün rolunu bir daha diqqətə çatdırmaq baxımından da əlamətdardır. Güclü dövlətin formalaşması və inkişafı üçün milli sərvətlərlə yanaşı, elmi biliklərə, müasir texnologiyalara və yaradıcı insan kapitalına əsaslanan inkişaf modeli vacibdir.

"Milli dirçəlişin müasir mərhələsini elmin inkişafı, yeni biliklərin yaradılması, gənc alimlərin yetişdirilməsi və Azərbaycanın dünya elminə inteqrasiyası ilə sıx bağlı görürəm. Elmi potensialımızın gücləndirilməsi, tədqiqat nəticələrinin praktikaya tətbiqi və gənc nəslin elmə marağının artırılması Azərbaycanın gələcək inkişafına mühüm töhfə verəcək. Çünki elmi düşüncəsi, biliyi və intellektual gücü yüksək olan cəmiyyət hər zaman tərəqqiyə doğru inamla irəliləyir", - deyə akademik İradə Hüseynova qeyd edib.

Milli Dirçəliş Günü münasibətilə kitab sərgisi

17 Noyabr - Milli Dirçəliş Günü münasibətilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında sərgi təşkil olunub.



Sərgidə xalqımızın milli birliyini, azadlıq istəyini, öz taleyini müstəqil müəyyənləşdirmək əzmini və dövlətçilik iradəsini əks etdirən dəyərli nəşrlər nümayiş olunub. Kitablarda Azərbaycan xalqının milli oyanışının, tarixi yaddaşının və istiqlal mübarizəsinin mərhələləri, xalq hərəkatının yaranma səbəbləri və gedişi, eləcə də Azərbaycanın dövlət müstəqilliyinin bərpasına gedən yolda oynadığı mühüm rol işıqlandırılır.

Nəşrlərdə, həmçinin Ümummilli Lider Heydər Əliyevin Milli Dirçəliş Günü münasibətilə Azərbaycan xalqına ünvanladığı müraciətin tam mətni, Ulu Öndərin və Prezident İlham Əliyevin milli birlik və dövlət müstəqilliyi istiqamətində həyata keçirdikləri siyasət, müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi sahəsindəki xidmətləri haqqında məlumatlar yer alır.

Sərgidə "Heydər Əliyev siyasəti: tarix və müasirlik", "Dünya və Azərbaycan siyasətində Heydər Əliyev kursu", "Heydər Əliyevin böyük siyasət yolu", "Heydər Əliyev - İlham Əliyev: azərbaycançılığın zəfər yolu", "Zamana sığmayan lider", "Heydər Əliyev - İlham Əliyev dövlət quruculuğu xətti: konseptual yanaşma", "100 ilin imzası", "Heydər Əliyev ideyalarının zəfər yürüşü" və digər nəşrlər təqdim olunub.

Bununla yanaşı, Mərkəzi Elmi Kitabxana tərəfindən tərtib edilmiş "Görkəmli dövlət xadimi Heydər Əliyev" və "Qırx dörd günün salnaməsi: Vətən müharibəsi" adlı biblioqrafiyalar da sərgidə nümayiş etdirilib.

Sərgilənən nəşrlərlə MEK-in saytının Elektron kitabxana bölməsində tanış olmaq mümkündür.

AMEA Rəyasət Heyətinin elmi katibi Süni İntellekt Zirvəsi 2026-da iştirak edib

